RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 5 (8884) ÇƏRŞƏNBƏ AXŞAMI, 11 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLAHİ ƏDALƏT

## İlham Əliyevin “dəmir yumruğ”u ilə bərpa olundu



**Həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır.**

**İlham ƏLİYEV**

**Dünyada İlahi Ədalətin mövcudluğuna və hökmən öz yerini tutacağına həmişə inanmışam!**

Bəlkə də, bu inam həyatda gördüklərim və haqsızlıqların nə vaxtsa cəzalanmasına şahidliyim nəticəsində yaranıb!

Bilmirəm!

Bildiyim odur ki, Yer və Göy idarə olunur, zalımla məzluma fərq qoyulur, “quduran 40 gündən çox getmir”.

*Tanrının hesabında həmin “40 gün” nə qədər çəkir, bu ölçü vahidindən də xəbərsizəm!*

❖ ❖ ❖

**Haqsızın, qudurmuşun cəzası da müxtəlif olur!**

**Bu da İlahinin öz seçimidir!**

*Zəlil günə saldığı da, ağlını başından, sağlamlığını əlindən aldığı da, çörəyə möhtac qoyduğu da, dəmir barmaqlıqlar arxasına saldığı da və daha hansısa bizim bilmədiyimiz formada cəza növləri var!*

Cəza birdəfəlik və uzun sürən şəkildə də olur!

Bu da təqsirkarın günahının ağırlıq dərəcəsindən asılıdır!

❖ ❖ ❖

**Allah-təala zalımı cəzalandırarkən cəzaverəni də özü seçir!**

**Adətən, cəzaverənlər Tanrıya daha yaxın insanlar hesab olunurlar!**

**Həm də başqalarından fərqli, vergili, həyatda ədalətli insan imici qazanmış, zəka və iradəli insan kimi tanınır, qəbul edilir!**

Bir incə məqam da var: Tanrı zalımı “cinayət yolu” ilə deyil, ədalətin gücü ilə cəzalandırır!

Azğınlaşmış insan başına gələnləri “təsadüf”, “öz səhvi”, yaxud uğursuzluq kimi də qəbul edə bilir!

Bu, onun “kallığına” və “ağıllanmadığına” dəlalət edən haldır!

*Amma Tanrının ədalətinə inanmaq və onu səbirlə gözləmək, İlahi Ədalətin öz yerini tutacağına əmin olmaq, şəkk etməmək vacibdir!*

*Bəlkə də, biz onun gecikməsindən rəncidə olur, tələsə bilirik!*

*Tanrı isə hər şeyin vədəsini, qədərini və üsulunu çox dəqiq müəyyənləşdirir!*

*Ardı 3-cü səh.*

## Əlcəzair BMT Nizamnaməsinin prinsiplərinə tam sadiqdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul edib.

*Ardı 2-ci səh.*

## Azərbaycanla Koreya Respublikası arasında fəal əməkdaşlıq həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul edib.

*Ardı 2-ci səh.*




Prezident İlham Əliyevin ötən il xarici ölkələrə səfərləri Azərbaycan diplomatiyasının növbəti nailiyyətləri oldu

2021-ci il Azərbaycan üçün bütün sahələrlə yanaşı, xarici siyasət prioritetlərinin həyata keçirilməsi baxımından da kifayət qədər uğurlu oldu.

Bu dövrdə Azərbaycan nəinki beynəlxalq əlaqələrini daha da genişləndirdi, həmçinin regional və dünya miqyasında ölkəmizin milli maraqlarının effektiv şəkildə təmin edilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Ötən il ərzində Prezident İlham Əliyevin müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə keçirdiyi çoxsaylı görüşlər Azərbaycanın xarici siyasətinin kifayət qədər uğurlu, çoxşaxəli və qətiyyətli olduğunu təsdiq edir. Bu səfərlər həm də ondan xəbər verdi ki, Vətən müharibəsində qazanılan Zəfər ötən il Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsində böyük rol oynayıb.

### Prezident İlham Əliyevin siyasi-diplomatik uğuru

Prezident İlham Əliyev ötən il ilk xarici səfərini Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya etdi. İşgüzar xarakter daşıyan bu səfərdə Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin iştirakı ilə üçtərəfli görüş keçirildi.

*Ardı 4-cü səh.*

## Azərbaycan təkcə işğaldan azad edilmiş əraziləri dirçəltməklə məşğul olmur

### Prezident İlham ƏLİYEV: “Müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq”

Ölkəmizin ərazisinin 20 faizi 30 il düşmən işğalı altında qaldı. Bu işğal nəticəsində yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşərək məcburi köçkün həyatı yaşamalı oldu. İşğalçı erməni silahlı qüvvələrinin torpaqlarımızı tərk etməsi barədə BMT tərəfindən dörd qətnamə qəbul edilsə də, ermənilər buna məhəl qoymadılar.

1994-cü ilin mayında Ermənistanla atəşkəs razılaşması əldə olundu, lakin düşmən buna da əməl etmədi. Daim əsgərlərimizə və mülki əhaliyə atəş açaraq onları qətlə yetirdilər. Ermənilər atəşkəsi bir fürsət bilərək işğal etdikləri ərazilərdə möhkəmlənmək üçün bir neçə səddən ibarət müdafiə istehkamları qurdular. Sonra da bizi müharibədən çəkindirmək üçün müxtəlif əfsanələr uydurmağa başladılar ki, “Ohanyan xətti” keçilməzdir.

*Ardı 3-cü səh.*

## “Şuşa ili”ndə daha möhtəşəm nailiyyətlər qazanılacaq

İlham Əliyevin postböhran dövrü üçün müəyyən etdiyi inkişafın yol xəritəsi strateji vəzifələrin yerinə yetirilməsinə real zəmin yaradır

İstənilən xalq və onun yaratdığı dövlət siyasi, iqtisadi və digər cəhətlərdən nə qədər möhkəm, qüdrətlidirsə, onun həyata keçirdiyi siyasətin müstəqillik elementləri də o dərəcədə güclü olar.

Bu mənada Prezident İlham Əliyevin son 18 ildə həyata keçirdiyi tam müstəqil siyasət nəticəsində Azərbaycanın əhəmiyyətli dərəcədə gücləndiyi dünyada heç kimdə şübhə doğurmur. İkinci Qarabağ savaşındakı böyük Zərəfdən sonra Azərbaycan postmüharibə dövründə atdığı addımlarla, yürütdüyü siyasətlə bir daha dünyaya gücünü, qüdrətini, nəyə qadir olduğunu nümayiş etdirdi.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində Xilaskar Komandan bəyan etdi ki, Azərbaycan postmüharibə dövründə qarşıya qoyulan bütün məqsədlərə nail olub. İndi isə yeni bir mərhələyə - postböhran dövrünə qədəm qoyur. Əlbəttə ki, bu dövrdə də uğurların davam etməsi üçün qarşıya qoyulan tapşırıqlar vaxtında layiqincə icra edilməlidir.

*Ardı 5-ci səh.*

## «Omikron» Azərbaycana da gəldi

### Yeni ştam dünyada COVID-in ən dominant növünə çevrilir

COVID-19 pandemiyasına səbəb olan “SARS-CoV-2” virusunun dünya ölkələrində sürətlə yayılan “Omikron” variantı Azərbaycanda da aşkarlandı.

Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında ölkə xaricindən gələn şəxslərdən götürülmüş nümunələrin 12-də “Omikron” variantının qeydə alındığı açıqlanıb.

Məlumatda yeni ştamdan qorunmaq üçün əhali bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmağa imkan verən gücləndirici (buster) doza vurdurmaqla peyvəndlənməyə çağırılır.

### “Omikron” bir çox ölkələrdə sürətlə yayılır

Ötən ilin noyabrında ortaya çıxan “Omikron” qısa zaman ərzində onlarca ölkədə COVID-19-a yoluxma hallarının sayındakı rekordun yenilənməsinə səbəb olub.

*Ardı 8-ci səh.*



# Əlcəzair BMT Nizamnaməsinin prinsiplərinə tam sadiqdir



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, səfir Abdelouahab Osman etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edərək, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrə toxunaraq, bu müstəvidə də fəaliyyətin intensivləşdirilməsinin və ticarət dövriyyəsinin artırılması imkanlarının araşdırılmasının zəruriliyini bildirdi. Dövlətimizin başçısı həmçinin insanlar arasında fəal təmasların təşviqinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev Abdelouahab Osmanın səfirliyi dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.



Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə həmişə beynəlxalq hüququn aliliyini və Qoşulmama Hərəkatının təməlini təşkil edən Bandunq prinsiplərini rəhbər tutmuşdur.

Prezident İlham Əliyev 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin işğal altında qalmasına və Ermənistanın bu ərazilərdə törətdiyi dağıntılara, Azərbaycanın mədəni irsinə qarşı vandalizm əməllərinə toxunaraq regional əməkdaşlığı nəzərdə tutan postmünaqişə dövrünə aid sülh gündəliyinin həyata keçirildiyini bildirdi.

Səfir Abdelouahab Osman Əlcəzair Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Abdelouahab Osman Əlcəzairin BMT Nizamnaməsinin prinsipləri və məqsədlərinə, o cümlədən ölkələrin milli suverenliyinə, ərazi bütövlüyünə hörmət etməyə və daxili işlərə müdaxilə etməməyə tam sadiq olduğunu qeyd etdi. Səfir ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Səfir Abdelouahab Osman Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirdiyini vurğuladı.

# Azərbaycanla Koreya Respublikası arasında fəal əməkdaşlıq həyata keçirilir



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, səfir Li İn-Yonq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu bildirərək, müstəqillik illərində münasibətlərimizin çox uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanla Koreya Respublikası arasında uzun illər müxtəlif sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi, siyasi əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Bu baxımdan Koreyanın yüksəksəviyyəli rəsmilərinin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafına töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığa toxunaraq, Koreyanın bir çox şirkətinin ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən infrastruktur və inşaat layihələrində uğurla iştirak etdiklərini vurğuladı. Dövlətimizin başçısı birgə investisiya sahələrinin, ixrac-idxal əməliyyatlarının artırılmasının, insanlar arasında təmasların genişləndirilməsinin əhəmiyyətinə toxundu. Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Səfir Li İn-Yonq son 30 il ərzində Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığın və insanlar arasında əlaqələrin ölkələrimizin potensialına uyğun olaraq daha da möhkəmləndirilməsinin vacibliyini bildirdi və fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd etdi.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində Koreya şirkətlərinin mümkün iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı.



## S.N.Ələkbərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Sahib Nurəddin oğlu Ələkbərov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 yanvar 2022-ci il*

# Baş Prokurorluqda əməliyyat müşavirəsi

## Ötən il cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində prokurorluq orqanları tərəfindən zəruri tədbirlər görülüb

Baş Prokurorluqda 2021-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə çıxış edən baş prokuror Kamran Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu müdrik və düşünülmüş dövlətçilik kursunun alternativsiz davamçısı, "Qarabağ Azərbaycandır!" ifadəsini milli mübarizəmizin rəmzinə çevirən Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin möhtəşəm uğurlara imza atmaqla növbəti onilliklər üçün tərəqqisinə və qələbələrinə geniş imkanlar yaradıldığını qeyd edib.

Tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Vətən müharibəsindəki Zəfərin Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə dövlət başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən nəhəng və sürətli tikinti-quruculuq, bərpa işlərinin əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura "Böyük qayıdış"ın əsasını qoyduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışlarında iştirak etmələri, yenilərinin təməlini qoymaları, "Zəfər" yolunun və "Qarabağın hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, eləcə də 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsi doğma torpaqlarımızın dirçəldilməsinin təminatı olub. Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan bir gündə - iyunun 15-də Şuşada Türkiyə ilə Azərbaycan arasında imzalanan müttəfiqlik haqqında müstəsna siyasi və tarixi əhəmiyyətə malik Bəyannamənin Qarabağ Zəfərindən sonra qazanılan növbəti tarixi uğur olmaqla yanaşı, iki dost və qardaş ölkə arasında mövcud əlaqələri və əməkdaşlığı yeni strateji müttəfiqlik səviyyəsinə yüksəltdiyi bildirilib.

Qeyd olunub ki, dövlət başçısının parlaq diplomatik məharəti sayəsində Vətən müharibəsinin nəticələri mötəbər beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən də qəbul edilib. Bölgədə sülhün və əmin-amanlığın bərpası istiqamətində ötən ilin noyabr və dekabr aylarında müvafiq olaraq Soçidə Rusiya Prezidentinin və Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə Ermənistanın baş naziri ilə keçirilmiş üçtərəfli görüşlər diplomatik qələbəmizin növbəti təntənəsi olub.

Müşavirədə torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələrinin, yaralanan qazilərin, eləcə də müharibə iştirakçılarının Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə olunduqları xüsusi vurğulanıb. Bu baxımdan Qarabağ müharibəsi əlillərinin və onların ailə üzvlərinin sosial müdafiəsinə xüsusi qayğının daha bir təzahürü olaraq Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödənişlərin edilməsi barədə dövlət başçısının fərmanı, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə yeni evlərin və mənzillərin verilməsi, onların maddi-sosial problemlərinin aradan qaldırılmasına və təminatına dəstək məqsədilə yaradılmış "YAŞAT" Fondunun həyata keçirdiyi tədbirlərin önəmi diqqətə çatdırılıb.

Bildirilib ki, Prezident İlham Əliyevin fədakar və yorulmaz fəaliyyəti nəticəsində dünyaya yeni iqtisadi və sosial inkişaf modeli təqdim edən Azərbaycan bütün sahələrdə inkişaf tempini 2021-ci ildə də qoruyub saxlaya bilib. Ölkəmizdə həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə pandemiya tam nəzarət altına alınıb. Koronavirusla mübarizə tədbirləri ilə yanaşı, 44 günlük Vətən müharibəsinə baxmayaraq, ötən il heç bir sosial layihə təxirə salınmayıb, iqtisadi islahatlar daha da dərinləşib.

Baş prokuror diqqətə çatdırıb ki, 2021-ci il Azərbaycan Respublikası prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olub. İctimai-siyasi sabitliyin daxili işlər, dövlət təhlükəsizlik və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlər görülüb.



Əməliyyat müşavirəsində prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi qeyd edilib. Prokurorluq orqanlarının daim Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğu, bu baxımdan dövlət başçısının fevralın 8-də Baş Prokurorluğun Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirakının quruma göstərilən etimadla yanaşı, prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirdiyi xüsusi vurğulanıb.

Görülən işlərin davamı olaraq Azərbaycan Prezidentinin Sərəncamı ilə Qubadlı və Kəlbəcər Hərbi prokurorluqlarının, eləcə də Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılması, o cümlədən qısa zaman kəsiyində müasir tələblərə cavab verən Qubadlı və Kəlbəcər Hərbi prokurorluqlarının inzibati binalarının istifadəyə verilməsinin Qarabağın dirçəldilməsinə dair dövlət siyasətinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Qeyd edilib ki, prokurorluqda həyata keçirilən müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətin səmərəliliyinin artırılması işində müstəsna önəmə malik Prezidentin 2021-ci il 7 may tarixli Fərmanı dövlət başçısının quruma olan inam və etimadının daha bir göstəricisi olub.

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsində qazanılmış tarixi Qələbənin birinci ildönümü münasibətilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərarın prokurorluq orqanları tərəfindən təxirəsalınmadan və düzgün icrası təmin edilib. İndiyədək ümumilikdə 10 min 943 nəfər barəsində amnistiya tətbiq edilib, o cümlədən 6049 şəxs barəsində müvafiq prokurorların razılığı ilə cəzaları icra edən qurumlar tərəfindən, 4053 nəfər barəsində prokurorların iştirakı ilə məhkəmələr tərəfindən, 119 nəfər barəsində bilavasitə prokurorluq orqanları tərəfindən, 722 nəfərə isə digər qurumlar tərəfindən prokurorluğun prosessual rəhbərliyi ilə amnistiya tətbiq edilib. Həmin şəxslər cəzadan və ya cinayət məsuliyyətindən azad edilib, cəzaları azaldılıb.

Müşavirədə prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı həyata keçirilən tədbirlərlə yanaşı, beynəlxalq tərəfdaşlarla qarşılıqlı münasibətlərin inkişafına da xüsusi diqqət yetirildiyi bildirilib. Hesabat dövründə Rusiya Federasiyası baş prokurorunun və Türkiyə Respublikası Ali Məhkəməsi baş prokurorunun rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə işgüzar səfərləri zamanı dövlətimizin başçısı İlham Əliyev tərəfindən qəbul olunmalarının ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratdığı diqqətə çatdırılıb.

Qurumun beynəlxalq nüfuzunun artırılması istiqamətində xüsusilə noyabrın 1-də Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclasında Şuranın Əsasnaməsinin imzalanıb təsis edilməsinin türkdilli ölkələr arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə xidmət edəcəyi vurğulanıb.

Qeyd edilib ki, ötən il prokurorluq orqanları tərəfindən xarici tərəfdaşlarla çoxsaylı görüşlər keçirilib. Belarus İstintaq Komitəsinin sədri Dmitri Qoranın, İstanbul şəhərinin baş prokuroru Şaban Yılmazın rəhbərlik etdikləri nümayəndə heyətləri ölkəmizdə səfərdə olublar. Həmçinin baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ukrayna və Gürcüstana işgüzar səfər edib.

Məlumat verilib ki, hesabat dövründə korrupsiyaya qarşı mübarizə də diqqət mərkəzində saxlanılıb. Korrupsiya hüquqpozmalarına yol vermiş 492 şəxs barəsində 301 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib, 39 milyon 224 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib. Həmçinin 101 milyon 373 min manat dəyərində əmlak üzərinə həbs qoyulub. Eləcə də cinayət məsuliyyətindən azad edilmiş şəxslər tərəfindən mövcud qanunvericiliyin tələbinə uyğun olaraq dövlət büdcəsinə 2 milyon 195 min manat məbləğində əlavə pul vəsaiti ödənilib.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkarlanan nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2021-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılıb. Belə ki, hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 52 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib. Onlardan 2-si prokurorluq orqanlarından xaric edilib, 5 nəfər vəzifədən azad olunub, 30 nəfərə töhmət və ya şiddətli töhmət, 15 nəfərə isə irad intizam tənbehi tədbiri tətbiq olunub.

Müşavirədə dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması istiqamətində ötən il keçirilmiş müsabiqə nəticəsində yüksək nəzəri bilikləri ilə seçilən 100 gənc hüquqşünasın müvəffəqiyyət qazandığı, həmçinin hesabat dövründə elan edilmiş 23-cü müsabiqənin yekunlaşması istiqamətində işlərin davam etdirildiyi diqqətə çatdırılıb.

Əməliyyat müşavirəsində Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2021-ci ilin nəticələrinə görə artım müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunmaları üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Eyni zamanda hesabat dövründə görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunub. İstintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, amnistiya ilə bağlı qərarın icrası, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub. Xüsusilə dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin ardıcıllığının təmin edilməklə bütün neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasının vacibliyi vurğulanıb.

Cari hesabat dövründə cəmiyyəti narahat edən intihar halları, narkotik vasitələrin qanunsuz dövriyyəsi, habelə dəm qazından zəhərlənmə faktları üzrə ibtidai araşdırma və əməliyyat-axtarış fəaliyyəti üzərində prokuror nəzarətinin gücləndirilməsi, bu kimi hadisələrin sayının minimuma endirilməklə təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi tələb olunub.

Sonda 2021-ci ildə görülmüş işlərin vəziyyətinin ümumiləşdirilərək nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilib.

Əməliyyat müşavirəsinə yekun vuran baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2022-ci ildə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin reallaşdırılmasında, cinayətkarlığa qarşı digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasında zəruri tədbirlərin görülməsini təmin edəcək.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



# İLAHİ ƏDALƏT

## İlham Əliyevin “dəmir yumruğ”u ilə bərpa olundu

*Əvvəli 1-ci səh.*

**Xəyanət - ermənin adi davranış qaydasıdır!**

**Yaltaqlıq, yarınmaq, qulluq göstərmək, kiminsə əlində alətə çevrilmək - yaşayış tərzidir!**

Böyüyün yanında kiçiklik etmək, zəifi görəndə əjdahaya dönmək, qazanc, dolanışıq güddüyü şəxsin ailəlikcə köləsinə çevrilmək, xəbərçilik, satqınlıqla “hörmət qazanmaq” asan və normal bildiyi, daim istifadə etdiyi gündəlik vasitələrdir.

*Ermәni tək və zəif olanda quzuya çevrilir!*

*Birləşib güclənəndə, arxasında duran olanda isə hər şeyi qamarlamağa can atır, özünə bir hami tapanda dərhal “yersiz gəldi, yerli qaç” məsələsindəki kimi həyasızcasına addımlar atır.*

Əsas “silahı” çoxüzlülük, riyakarlıq, yalançılıq, başqalarına quyu qazmaq, tora salmaq, şərləməkdir.

**Həm də terror ustasıdır!**

**Pusquda durmağı, arxadan vurmağı, sudan quru çıxmağı, canavar simasını gizlətməyi də məharətlə bacarır!**

Bəli, çox bacarıqlıdır, uyğunlaşmağın, pul qazanmağın, münasib yer tapan kimi qısa vaxtda özününküləri ətrafına toplamağın ustasıdır - kəsəsi, “erməni millət deyil, təşkilatdır” məşhur “tezisini” daim doğruldur!

*Bütün bunlar erməniyə müvəqqəti uğur gətirsə də, bütövlükdə millət kimi bədbəxtliyidir!*

*Vətənləri yoxdur deyə yer üzünə səpələniblər!*

Özlərinə qondarma tarix yaratmaqla əsrlər boyudur ki, qədimlik statusu qazanmağa çalışırlar.

Bir tarixi abidələri, tarixdə yaşamış məşhur sərkərdə və rəhbərləri yoxdur ki, onlara əsaslanıb nəyi isə sübut edələr.

Hətta qədim kilsələri də yoxdur, başqa dini məbədləri saxtalaşdırmaqla öz adlarına çıxarmaq, yerə bir “qədimlik” əşyası basdıraraq sonradan onu “tapmaqla” sübutlar yaratmaq sevimli məşğələləridir.

*Vətənsizlik, qaraçı həyatı sürmək, xeyirxahlarına xəyanət etmək, su içdikləri quyuya tüpürmək alınlarına yazılıb!*

*Bicliyi ağlını qat-qat üstələyən bu millətin naqis əməlləri ona heç vaxt xoşbəxt olmağa, sakit, əmin-aman şəraitdə yaşamağa imkan vermir!*

❖ ❖ ❖

**Erməni Türkiyəyə xəyanət etdiyinə, müharibə aparan dövlətin kürəyinə bıçaq sapladığına görə Cənubi Qafqaza köçürülmüşdür!**

**Həm də “alət millət” funksiyasını yerinə yetirmək üçün bura gətirilmişdir!**

**Satqınlığına mükafat olaraq ilk dəfə onunçün dövlət yaradılmışdır.**

İlk günlərdən də torpağında yerləşdiyi, sərvətlərindən və imkanlarından bəhrələndiyi xalqa qarşı xəyanət mövqeyi sərgiləmişdir!

Azərbaycan güclü olanda ona tulalanmış, ayağı yer tutub arxasında güclü görəndə isə hürməyə, hətta dişləməyə başlamışdır!

*Bu millət həmişə marıqdadır!*

*Ərazisinə qısılıb barındığı dövlət zəifləyən, başı nəyəsə qarışan kimi üzə çıxır, murdar xislətini göstərir!*

**Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazananda da yaranmış məqamdan torpaq qoparmaq üçün istifadəyə başladı.**

❖ ❖ ❖

Ermənilərin “Qarabağın işğalı” ssenarisi rəngarəngliyi və hiyləgər “tərkibi” ilə diqqət çəkirdi.

“Narazılıq mitinqləri”, “iqtisadi cəhətdən pis təminat” etirazları ilə başlanan hərəkat get-gedə şişərək “miatsuma” çevrildi, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi istəyinin mahiyyətini ortaya qoydu.

*Paralel şəkildə SSRİ-nin qəzet, jurnal, telekanal (mərkəzi televiziya) və informasiya agentliklərində, habelə bu vasitələrlə xaricə çıxmaqla güclü təbliğat-təşviqat işləri də aparırdılar.*

İnformasiya mübarizəsində isə vahid ideya vardı:

“Vəhşi müsəlmanlar” “qədim”, “zavallı” və “məzlum” millətə zülm edir, onların insan haqlarını pozur, “millətin öz müqəddəratını təyin etməsinə” mane olur!

Bu adla ermənilər havadarları vasitəsilə “özünü müdafiə dəstələri” (fadainlər) yaradaraq silahlandırdılar, Ermənistandan gələn “saqqallılar” Azərbaycan kəndlərinə hücum çəkərək qarətə, təxribatlara, vahimə yaratmağa başladılar, Şuşa ilə Ağdamın (əslində Azərbaycanın) əlaqəsini kəsdilər, sərnişin avtobuslarını daşa basdılar, sonra girovlar götürməyə başladılar.

**Mərkəz bu prosesə gizli dəstək verməklə yanaşı, riyakar mövqe tutur, özünü bilməzliyə qoyur, əslində isə Ermənistanda ordu quruculuğuna yardım göstərirdi.**

**Nəticədə Ermənistan millətçiləri və terrorçuları 366-cı sovet alayının köməyi ilə Xocalı soyqırımını törədərək müharibədə keyfiyyət dəyişikliyinə nail oldular.**

❖ ❖ ❖

*Erməni Qarabağa öz torpağı kimi yox, düşmən ərazisi kimi daxil oldu!*

*Odur ki, qarşısına nə çıxırdısa, talayır, yandırır, dağıdırdı!*

Min bir zəhmətlə, alın təri, əl qabarı ilə tikilən evlər, abad kənd və qəsəbələr qısa vaxtda xarabazara çevrildi!

Neçə nəslin tikib qurduğu cənnət Qarabağ az vaxtda yerləyeksan edildi!

Meyvə bağları, meşələr qırıldı, yeraltı və yerüstü sərvətlər talan edildi, çaylara zəhərli maddələr axıdıldı.

Su anbarlarından onun əsl sahibləri tərəfə axan kanallar yayda bağlandı, qışda sel yaradaraq ziyanəverlik edildi.

Təmas xəttində mütəmadi şəkildə atəşkəs pozulur, dinc sakinlər, qadınlar və uşaqlar hədəfə alınırdı.

**Dünya isə bütün bunları görür, bilir, guya “sülh danışıqları” yolu ilə nizama salmağa çalışırdı, əslində ədalətsizliyə göz yumaraq erməninin tərəfini tutmaqla işğalı əbədiləşdirirdi.**

❖ ❖ ❖

Hər şeyin bir sonu olmalıdır və olur!

Ermənistanda hakimiyyətin Ter-Petrosyandan sonra kriminal, cinayətkar Qarabağ klanının - Koçaryan və Sarkisyanın əlinə keçməsi düşməni daha da azğınlaşdırdı.

Artıq onlar nəinki işğal ərazilərini qaytarmayacaqlarını açıq şəkildə bəyan edirdilər, hətta yeni əraziləri tutacaqları ilə bizi hədələyirdilər.

*Ermənilər ürəkdən inanmışdılar ki, Azərbaycan ərazilərini öz gücləri ilə işğal ediblər.*

*İnanmışdılar ki, “döyüşkən”, “məğlubedilməz” millətdirlər.*

*İnanmışdılar kli, “böyük Ermənistan” yaradacaqlar!*

Bicliyi ağlından qat-qat çox olan Paşinyanın, “sorosçu uşağın” meydandan rəhbərliyə gəlməsi vəziyyəti daha da qəlizləşdirdi.

Paşinyan ermənilərin ürəklərindəkiləri ucadan söyləyirdi.

Gah sinəsi orden-medallarla dolu generalların əhatəsində Şuşada sərxoş olub yallı gedirdi, gah oğlunu Xankəndinə hərbi xidmətə göndərirdi, gah Dağlıq Qarabağı tərəf kimi danışıqlar prosesinə gətirmək istəyirdi, gah da Tovuz tərəfdən Azərbaycana hücum təşkil edərək enerji kəmərlərini ələ keçirmək istəyirdi.

**Azərbaycanın dolan səbir kasası daşmaq üzrə idi!**

**Paşinyanın “Qarabağ Ermənistandır, nöqtə” söyləməsi Azərbaycan Prezidenti İlham Əliyevin qəzəbinə və qəti addımlar atmasına səbəb oldu!**

❖ ❖ ❖

*Bu dəfə Ulu Tanrı haqqın-ədalətin bərpası üçün cənab İlham Əliyevi seçdi!*

*Seçdi və sonadək arxasında duraraq ilahi köməyini göstərdi!*

*Həm də İlham Əliyevin yumruğunu düşmənin başını qısa müddətdə əzə biləcək qüdrətli “dəmir yumruğ”a çevirdi!*

**İlham Əliyevi İlahi Ədaləti bərpa edənə, Azərbaycanın xilaskarı səviyyəsinə yüksəltdi.**

**Buna qədər Azərbaycanın rəhbəri olaraq torpaqları işğaldan azad etməkdən ötrü Prezident İlham Əliyev çox işlər görmüşdü!**

Aşkar və məxfi şəkildə!

İndi isə döyüş zamanı idi!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu döyüşə bütün bacarıq və qabiliyyəti, istedad və xarizması ilə hazırlaşmışdı!**

BELƏ Kİ:

- Tarixinin ən qüdrətli Azərbaycanını yaratmışdı;
- Yeni vətənpərvər gənclər nəsli tərbiyələndirmişdi;
- Yeni ordu yaradaraq onu ən müasir silahlarla silahlandırmışdı;
- Ölkənin siyasi nüfuzunu və müasir imicini ən yüksək səviyyəyə qaldırmışdı;
- Diplomatiya sahəsində bir çox uğurlara imza ataraq haqq işimizi bütün dünyaya çatdırmış, Azərbaycana çoxsaylı dostlar qazandırmışdı;
- Azərbaycan-Türkiyə dostluğunu və strateji əməkdaşlığını tarixdə olmayan bir səviyyəyə qaldırmışdı;
- Xalqın milli birliyini yaratmışdı;
- İnformasiya müharibəsinə hərtərəfli və mükəmməl hazırlaşmışdı;
- Nəyi nə vaxt və necə edəcəyini dəqiq müəyyənləşdirmişdi!

❖ ❖ ❖

**İlham Əliyev qısa vaxt - 44 gün ərzində “dəmir yumruğ”u ilə düşmənin başını əzib belini qırdı!**

**Yeni taktika və strategiya tətbiq edərək Ermənistan ordusunu məhv etdi, qorxaqlar və fərarilər yığnağına çevirdi!**

*Düşməni Ağdam, Laçın və Kəlbəcəri bir güllə belə atmadan, dinməz-söyləməz qaytarmağa məcbur etdi!*

*Qoyduğu şərtlər əsasında ona təslim aktını, üçtərəfli Bəyanatı imzalatdırdı!*

*Beş əsr ərzində ilk dəfə olaraq qüdrətli Sərkərdə kimi itirilmiş torpaqları qaytardı!*

*İki əsrlik Qarabağ münaqişəsini birdəfəlik, həm də uğurla həll etdi!*

*Azərbaycan xalqını dünyaya məğrur, döyüşkən, öz torpaqlarına sahib çıxan xalq kimi yenidən tanıtdı!*

**Bu, çoxdan gözlədiyimiz İlahi Ədalətin bərpası idi!**

Bu, azğın, quduğan düşmənin Tanrının seçdiyi qüdrətli Sərkərdə tərəfindən cəzalandırılması idi!

Bu, İlahinin qüdrət bəxş etdiyi “dəmir yumruğ”un tarixi zəfəri idi!

Şükür, İlahi bizə arxa durdu!

Minnətdarıq Müzəffər Ali Baş Komandan İlham Əliyevə - İlahi Ədaləti bərpa edərək qisasımızı aldı!

**Bəxtiyar SADIQOV**

# Azərbaycan təkcə işğaldan azad edilmiş əraziləri dirçəltməklə məşğul olmur

## Prezident İlham ƏLİYEV: “Müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq”

*Əvvəli 1-ci səh.*

Amma 44 günlük Vətən müharibəsində bu istehkamların çoxunu Azərbaycan əsgərləri yarım saata yardılar. Bu, o demək idi ki, biz ötən dövrdə ermənilərdən fərqli olaraq boşboğazlıqla yox, ciddi ordu quruculuğu ilə məşğul olmuşuq.

BMT-nin, ATƏT-in 30 ildə həll etmədiyi bir problemə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və əsgəri 44 gündə nöqtə qoydu. Çünki dövlət başçısı uzun müddət güclü ordu yaratmaq üçün hər bir imkandan istifadə etmişdi. İlk növbədə müasir döyüş əməliyyatları apara biləcək komanda heyəti hazırlamışdı. Bununla yanaşı, müasir, başlıcası isə hədəfi dəqiq vuran silahlar almışdı. 44 günlük Vətən müharibəsində biz Prezident İlham Əliyevin düzgün qərar qəbul etdiyinin şahidi olduq. Hər atəşin yan keçmədən hədəfə dəyməsini təkcə biz deyil, bütün dünya gördü.

Müharibə tarixi qələbəmizlə başa çatdı, Ermənistan ordusu darmadağın edildi. Mütəxəssislərin rəyinə görə, ən yaxşı halda Ermənistan ordusunu əvvəlki səviyyəyə 20 il ərzində gətirmək olar. Hətta bu dövrdə belə onlar nə qədər cəhd etsələr də, Azərbaycan Ordusu səviyyəsində ordu qura bilməyəcəklər. Ona görə ki, güclü ordu qurmaq üçün çoxlu pul xərcləmək lazımdır. Qonşu ölkədə isə bu vəsait yoxdur və yaxın gələcəkdə belə bir imkanın olması gözlənilmir.

Üstəlik, Azərbaycan müharibədə qələbə qazansa da, arxayınlaşmır, ordu quruculuğuna və onun daha müasir silahlarla təchiz edilməsinə xüsusi diqqət yetirir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ötən il dekabrın 24-də Hadrut qəsəbəsində hərbi hissənin açılış mərasimində demişdir: “Həm hərbi texnikanın alınması, həm hərbi xərclərin artırılması, eyni zamanda hərbçilərin maaşlarının artırılması, - bütün bunlar göz qabağındadır, - onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Əksinə, müharibə təcrübəsi bizə göstərdi ki, güclü yerlərimiz hardadır və qüsurlarımız hardadır. Müharibə dövründə qüsurlarımız çox deyildi, amma olub. Ona görə müharibə bizim üçün əvəzolunmaz təcrübə idi. Müharibədən sonra həm müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınır, eyni zamanda yeni silahlı birləşmələr yaradılır”.

Dövlət başçısı həmçinin bildirmişdir ki, bir çox Komando briqadaları artıq yaradılır. Belə hərbi birliklər istənilən hərbi vəzifələri icra etməyə qadir olacaq. Burada yüksək hərbi təlim keçmiş, xüsusi iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan Azərbaycan övladları xidmət edəcəklər.

Hadrutdan sonra həmin gün Prezident Şuşa şəhərinə gəldi. Bu təsadüfi deyildi. Həmişə doğum gününü sosial obyektləri açmaqla, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşməklə keçirən dövlət başçısı 60 illik yubileyini də ailə üzvləri ilə birlikdə Qarabağda - azad Şuşada keçirməyə qərar vermişdi. Çünki Prezidentin özünün bəyan etdiyi kimi, biz doğma torpaqlara qayıtmışıq və əbədi olaraq bu torpaqlarda yaşayacağıq. Bu gün işğaldan azad edilən ərazilərə məcburi köçkünlərin qayıtması üçün nəhəng infrastruktur layihələri icra edilir. Yaxın bir neçə ildə bütün yaşayış məntəqələri yenidən tikilərək buranın sakinlərinə təhvil veriləcək. Təzə salınacaq yaşayış yerləri müasir dünya standartlarına uyğun olacaq. Bundan ötrü “ağıllı kənd”, “ağıllı şəhər” layihələrinin icrasına başlanıb və artıq Zəngilanın Ağalı kəndində bu istiqamətdə işlər yekunlaşmaq üzrədir.

Prezident Şuşada olarkən Azərbaycan xalqına ona göstərdiyi inama görə təşəkkür edərək demişdir: “Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Şuşa xalqımız üçün tarixi, hərbi və mədəniyyət baxımından müstəsna əhəmiyyətli şəhərdir. Prezident İlham Əliyev 2022-ci ili “Şuşa ili” elan etmişdir. Yanvarın 5-də bu barədə sərəncam da imzalamışdır. Sərəncamda bildirilir ki, haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək tariximizə Zəfər günü kimi həkk olundu.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# “İlhamın Zəfər Yolu”

## Xalq şairi Nəriman Həsənzadənin “Azərbaycan” qəzetində çap edilən poeması Türkiyə mətbuatında dərc olunub

İkinci Vətən müharibəsində yenilməz Azərbaycan xalqının 44 günlük Zəfər ruhu Xalq şairi Nəriman Həsənzadənin şeirlərində də öz əksini tapıb. Xalq şairinin son dövrlərdə “Azərbaycan” qəzetində çap edilən “Qarabağnaməm İlhamdır” və digər şeirləri oxucular tərəfindən rəğbətlə qarşılanıb.



Prezident İlham Əliyevin 60 illik yubileyi ilə bağlı şairin “Azərbaycan” qəzetində çap olunan “İlhamın Zəfər Yolu” adlı poeması isə bu günlərdə Türkiyənin aparıcı mətbuat orqanlarında dərc edilib.

Türkiyə KİV-də qeyd olunur ki, Azərbaycanın Xalq şairi Qarabağ Zəfərini şeirlə ifadə edib. Şeirin misralarında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman əsgərlərin azad etdikləri Qarabağın baş tacı olan Şuşa şəhərinə aparan yollar, dağlara qalxan dolaylar, küçələr, evlər, bağlar da sanki uzun illər onun həsrəti ilə yaşayan doğma adamların gəlişindən sevincək olduğu təsvir olunur. Qəddar və amansız düşmənin dağıdıb viran qoyduğu, xarabaya çevirdiyi şəhərin yenidən dirçəlib canlanması, ev-ev, küçə-küçə, addım-addım tikilib-qurulması, daha gözəl və daha füsunkar görkəm alması qəlbləri iftixar hissi ilə doldurur. Şəhərdə gedən tikinti və quruculuq işləri onun daha abad və gözəl gələcəyindən soraq verir.

N.Həsənzadə vurğulayır ki, üzərinə tarixi missiyalar düşən, öz dəst-xəti, həyat yolu, bacarıqları ilə seçilən şəxsiyyətlər böyük zaman kəsiyində yaranır və mənsub olduğu xalqlar üçün Uca Tanrının töhfəsi kimi qəbul olunur. Layiqli davamçılar bu şəxsiyyətlərin yolunun işıqlı gələcəyinin təminatçısıdırlar. Biz bu tarixi gerçəkliyin möhtərəm Prezident İlham Əliyevin şəxsində şahidiyik.

Qeyd edək ki, Nəriman Həsənzadə tez-tez Qarabağda keçirdiyi gözəl günləri, unudulmaz xatirələri, maraqlı ədəbi görüşləri xatırlayar, bəzən də duyğularını, içindəki kədəri, xalqın illərlə çəkdiyi iztirabları, ağrı-acıları, faciəli yaşantıları qələmə alırdı. Hər yeni şeir, poema yazdıqca isə özünə yalnız bir arzuyla təskinlik verirdi - ağrıları unudacağımız gün gec-tez gələcək və o, qələbə nəfəsi duyulan əsərlər yazacaq... Nəhayət, illərlə həsrətində olduğu, ümidlə gözlədiyi o işıqlı sabah 2020-ci il sentyabrın 27-də açıldı. Və arzusunda olduğu zəfər ətirli şeirlərini yazmağa başladı.

***Ülkər XASPOLADOVA,***
***“Azərbaycan”***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan











Əvvəli 1-ci səh.

Görüşün keçirilməsi Azərbaycanın 44 günlük müharibədəki Zəfərinin hüquqi-siyasi təsdiqi olan 10 noyabr Bəyanatında yer alan məsələlərdən irəli gələn prioritetlərlə bağlı idi.

Moskvadakı görüşün yekunu ilə bağlı üçtərəfli Bəyanat imzalandı. İqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan ikinci bəyanatın qəbul olunması ilə bir daha təsdiq edildi ki, regionun gələcəyi hazırkı nəticələrin təftişi deyil, perspektivə istiqamətlənmiş məsələlərin həyata keçirilməsi ilə bağlıdır. Bu sənəd Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı bir daha təsdiqlədi və kommunikasiyaların bərpası ilə bağlı əks olunmuş müddəaların həyata keçirilməsi mexanizmlərinin formalaşdırılması üçün müvafiq vəzifələri müəyyən etdi. Moskvada imzalanan növbəti bəyanat Prezident İlham Əliyevin uğuru və siyasi-diplomatik qələbəsi oldu.

Bu səfər zamanı həm də Azərbaycan və Rusiya prezidentlərinin ikitərəfli görüşü keçirildi. Qeyd edildi ki, Azərbaycan-Rusiya münasibətləri son illərdə sürətlə inkişaf edib. Xüsusən, iki ölkənin prezidenti arasında olan dostluq münasibətləri, onların siyasi iradəsi və birgə səyləri bütün sahələrdə əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradıb. Bunun nəticəsidir ki, ildən-ilə yüksələn xətt üzrə inkişaf edən dövlətlərarası münasibətlər hazırda strateji səviyyəyə yüksəlib. Ötən il yanvarın 11-də keçirilən görüş zamanı da hər iki dövlət başçısı əlaqələrin daha da dərinləşdirilməsi barədə fikir mübadiləsi aparmışdılar.

### Azərbaycanla Rusiya vahid mövqedən çıxış edirlər

Prezident İlham Əliyev 2021-ci il ərzində növbəti xarici səfərini də iyul ayının 2-də Rusiya Federasiyasına edib. Bu işgüzar səfər bir daha Azərbaycanla bu ölkə arasında siyasi-iqtisadi münasibətlərin qonşuluq və dostluq prinsiplərinə söykənərək daha da dərinləşdiyini göstərdi. Belə ki, Azərbaycanla Rusiya arasında qarşılıqlı siyasi, iqtisadi, humanitar və digər sahələr üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün siyasi iradə var və prezidentlərin Moskva görüşündə bu istiqamətdə postpandemiya dövrünün yaradacağı imkanları da nəzərdən keçirildi.

Təbii ki, bu səfərin ən mühüm məqamı iki dövlət başçısının Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı 2020-ci il 10 noyabr tarixli birgə Bəyanatda nəzərdə tutulmuş məsələlərin icrası ilə bağlı vahid mövqe nümayiş etdirməsinin növbəti dəfə öz təsdiqini tapmasıdır. Bir daha məlum oldu ki, hər iki dövlət başçısı bəyanatla nəzərdə tutulmuş razılaşmaların, həmçinin bütün kommunikasiyaların, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat dəhlizinin - Zəngəzur dəhlizinin açılması məsələsində vahid mövqedən çıxış edir və bəyanatın müddəalarının yerinə yetirilməsində qətiyyət nümayiş etdirirlər.

Ermənistanda 2020-ci il 10 noyabr razılaşmasının icrasına əngəl törətmək istəyən qüvvələrin mövcudluğu məlumdur. Prezident İlham Əliyevin Moskvada Rusiyanın dövlət başçısı ilə keçirdiyi görüş bir daha təsdiqlədi ki, regionda sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar edilməsində, qarşılıqlı etimad mühitinin yaradılmasında maraqlı olmayan həmin qüvvələrin cəhdləri heç bir nəticə verməyəcək.

Bu səfər zamanı Azərbaycan və Rusiya prezidentləri səmimi, konstruktiv və ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə yönəlmiş müzakirələr apardılar ki, bu da iki dövlət başçısı arasında şəxsi münasibətlərin, Rusiya-Azərbaycan əlaqələrinin və geosiyasi reallıqlara yanaşmada ortaq mövqeyin xarakterindən irəli gəlir.









# 7 səfər, 12 prezident və 3 beynəlxalq təşkilat rəhbəri ilə görüş

## Prezident İlham Əliyevin ötən il xarici ölkələrə səfərləri Azərbaycan diplomatiyasının növbəti nailiyyətləri oldu

### İlham Əliyev türk dünyasına Zəfər sevinci bəxş etdi

Noyabrın 11-də Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirak etmək üçün Türkiyəyə səfər edib. Qeyd edək ki, İstanbulda noyabrın 12-də keçirilən Türk Şurasının Zirvə Görüşü mühüm hadisələrlə əlamətdar oldu: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimi keçirildi, şuranın adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı qərarlar qəbul olundu. VIII Zirvə görüşünün ən mühüm hadisəsi isə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi oldu.

Prezident İlham Əliyev bu mükafata Azərbaycanın Vətən müharibəsindəki tarixi və möhtəşəm qələbəsinə və türk birliyinin daha da möhkəmləndirilməsindəki səylərinə görə təltif olundu. Vətən savaşındakı qələbə ilə Azərbaycan 30 ilə yaxın işğal altında qalan torpaqlarını azad etdi. Ermənistanın işğal siyasətinə son qoymaqla Azərbaycan BMT-nin kağız üzərində qalan qətnamələrinin icrasını təmin etdi. Bu qələbə regionda yeni siyasi-iqtisadi reallıqlar və əməkdaşlıq imkanları yaradıb.

Türk Dünyasının Ali Ordenini təltif edərkən "Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev" - deyə müraciət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki: "Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır". Türkiyə Prezidenti xüsusi vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyinin və bərabərliyinin genişləndirilməsinin, Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəsi olmuşdur.

Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması dövlətimizin başçısının şəxsiyyətinə göstərilən böyük ehtiramın nümunəsidir. Bu mükafat Azərbaycan Prezidentinin dünyadakı yüksək nüfuzunun təcəssümüdür.

Türk Şurasının Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev iştirak ediblər.

Bu səfər zamanı Prezident İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarovla ayrıca görüşü keçirilib. Görüşdə iki ölkə arasında iqtisadi-ticari münasibətlərin genişləndirilməsi, investisiyalar, energetika, nəqliyyat və digər sahələrdə, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin gücləndirilməsi məsələləri müzakirə olunub.

### Soçi görüşü Azərbaycanın qətiyyətli mövqeyinin təmin olunması ilə nəticələndi

Noyabrın 26-da Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfər etdi. Həmin gün də Soçidə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti üçtərəfli görüş keçirildi.

Görüşün əsas müzakirə mövzusu 2020-ci il noyabr Bəyanatının, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişi barədə oldu. Prezident İlham Əliyev üçtərəfli görüşdə Azərbaycanın mövqeyini bir daha diqqətə çatdıraraq dedi: "Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməyib. Buna görə biz dəfələrlə açıq bildirmişik ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırıq. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşular kimi yaşamağı, yenidən qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlayaq".

Rusiya Prezidenti Vladimir Putin də mətbuata bəyanatında Prezident İlham Əliyevin toxunduğu məsələlər ətrafında danışdı. Rusiya Prezidenti də iki dövlət arasında sərhədin demarkasiyası və delimitasiya işlərinin başlanılmasını vacib hesab etdi. Eyni zamanda Vladimir Putin nəqliyyat dəhlizlərinin açılmasından bəhs etdi və bunun həm dəmir yoluna, həm də avtomobil yollarına aid olduğunu xüsusi vurğuladı. Rusiya Prezidentinin fikirləri bir daha göstərdi ki, Zəngəzur dəhlizi layihəsi rəsmi Moskva tərəfindən ən ali səviyyədə dəstəklənir.

Soçi görüşü vacib razılaşmaların əldə olunması ilə nəticələndi. Azərbaycan üçün mühüm olan həm də odur ki, ötən ilin yanvarında Moskvada keçirilən ilk görüşdə olduğu kimi, Prezident İlham Əliyev Soçidə də müzakirə olunan bütün məsələlərlə bağlı Azərbaycanın maraq və mənafelərini qətiyyətlə təmin etdi.

### İƏT-ə üzv ölkələr Zəngəzur dəhlizindən istifadə edəcəklər

Noyabrın 28-də Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfər etdi. Azərbaycan İƏT-in fəal üzvüdür. İƏT-ə üzv dövlətlərlə respublikamızın münasibətləri dostluq və qarşılıqlı hörmətə əsaslanır. Azərbaycan beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq edir.

Zirvə toplantısında çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın iqtisadi inkişaf göstəriciləri, Vətən müharibəsində qazanılan Zəfər, Ermənistanın Azərbaycan ərazilərində törətdiyi vəhşiliklər, bölgədə yaranan yeni reallıqlar, habelə respublikamızın pandemiya ilə qlobal mübarizəyə töhfələri barədə məlumat verdi. Zəngəzur dəhlizinin Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcəyini qeyd edən Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, İƏT-ə üzv ölkələr bundan istifadə edəcəklər.

Zirvə görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin əhəmiyyətindən danışdı, bunun bölgədə normallaşdırma səylərini gücləndirəcəyini vurğuladı. Pakistan Prezidenti Arif Alvi də Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi münasibətilə təbriklərini çatdırdı. "Bu fürsətdən istifadə edib Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası münasibətilə Prezident Əliyevi bir daha təbrik etmək istərdim. Onun bu işə töhfəsini çox yüksək qiymətləndirirəm" - deyə Prezident Arif Alvi bildirib.

Türkmənistana səfəri zamanı Prezident İlham Əliyevlə bu ölkənin Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran Prezidenti Seyid İbrahim Rəisi, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi arasında görüşlər keçirildi.

### Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr uğurla inkişaf edir

2021-ci il dekabrın 13-də Prezident İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etdi. Mötəbər beynəlxalq təşkilat olan Avropa İttifaqı (Aİ) ilə də Azərbaycanın əlaqələrində son illərdə çox ciddi irəliləyişlər baş verib. Azərbaycanla Aİ arasında bir çox istiqamətlərdə, o cümlədən enerji təhlükəsizliyi sahəsində uğurlu əməkdaşlıq mövcuddur.

Dekabrın 14-də Prezident İlham Əliyevlə Aİ Şurasının Prezidenti Şarl Mişel arasında keçirilən görüşdə də əlaqələrin uğurla inkişaf etdiyi qeyd edildi. Şarl Mişelin Azərbaycan Respublikasına səfəri xatırlandı. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulandı. Prezident İlham Əliyev bu məsələlərə verdiyi töhfəyə görə Şarl Mişelə təşəkkürünü bildirdi.

Söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı məsələlər müzakirə olundu. Eyni zamanda kommunikasiyaların açılması, humanitar xarakterli məsələlər və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparıldı.

Aİ-nin "Şərq Tərəfdaşlığı" Proqramı da ölkəmizlə Aİ arasında əlaqələrə yeni stimul verib. Dekabrın 15-də Brüsseldə keçirilən Aİ-nin Şərq Tərəfdaşlığının VI Sammitində çıxış edən Prezident İlham Əliyev uğurla inkişaf edən Azərbaycan-Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək Avropa İttifaqı ilə Azərbaycan arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb. Azərbaycanla Aİ arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident İlham Əliyev sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı Azərbaycanın Aİ-nin 9 üzv dövləti, yeni quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını vurğulayıb. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədlərinin əlaqələrimizin xarakterini nümayiş etdirdiyini deyib.

Azərbaycan dövləti xarici siyasətdə elan etdiyi prioritetlərə uyğun olaraq dünyanın ayrı-ayrı subyektləri ilə özünün siyasi və iqtisadi əməkdaşlığını tamamilə bərabərhüquqlu tərəfdaşlıq formatında qurur. Nəinki qurur, o cümlədən inkişaf etdirir, keyfiyyətcə yeni mərhələyə qaldırır. Prezident İlham Əliyevin Belçikaya işgüzar səfəri göstərdi ki, Aİ ilə yanaşı, Azərbaycanın NATO ilə də əlaqələri milli maraqlarımıza uyğun şəkildə genişlənir.

### NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olunub

Dekabrın 14-də NATO-nun Baş katibinin dəvəti əsasında Azərbaycan Prezidenti İlham Əliyevlə Alyansın Baş katibi Yens Stoltenberq arasında keçirilən görüşdə də bu, bir daha bəyan olundu. NATO-nun Baş katibi Azərbaycanın Alyansın dəyərli tərəfdaşı olduğunu dedi və Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, Azərbaycan sülhməramlıları Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olublar və onlar 120 mindən çox insanın Əfqanıstan hava limanı vasitəsilə təxliyəsinə töhfə veriblər. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, bu, artıq onun Alyansın mənzil-qərargahına yeddinci səfəridir. Diqqətə çatdırıldı ki, Azərbaycan hərbçiləri 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət ediblər. Prezident İlham Əliyev Azərbaycanın NATO-nun üzv ölkələri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinin olduğunu qeyd etdi, eləcə də Alyansın aparıcı üzv dövlətlərindən olan qardaş Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycanın 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı ilə əməkdaşlığının vacibliyi vurğulandı. Bu çərçivədə ölkəmizin NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında və digər proqramlarında fəal iştirakı, Azərbaycan Silahlı Qüvvələri ilə NATO Silahlı Qüvvələri arasında operativ hərbi uyğunlaşmanın inkişaf etdiyi diqqətə çatdırıldı. Eyni zamanda Azərbaycanın NATO-nun təlimlərində və ikitərəfli əsasda Türkiyə ilə Azərbaycan arasında keçirilən təlimlərdə iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu qeyd olundu. Ölkəmizin NATO-nun "Qətiyyətli dəstək" missiyasının həyata keçirilməsində regional nəqliyyat və logistika mərkəzi kimi verdiyi töhfələr də təqdir edildi.

Dekabrın 14-də Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclası keçirildi. İclasda Azərbaycan-NATO əməkdaşlığı və praktiki müstəvidə əməkdaşlığın inkişafı, Alyansın Əfqanıstanda keçirilən "Qətiyyətli dəstək" missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesi və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələləri, həmçinin Azərbaycanın Avropanın enerji təchizatında rolu, regional proseslər barədə ətraflı fikir mübadiləsi aparıldı.

NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. Bu mövqenin NATO-nun sammit sənədlərində də dəfələrlə təsbit olunduğu qeyd edildi. NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın "Qətiyyətli dəstək" missiyasındakı rolu xüsusi vurğulandı. Azərbaycan hərbçilərinin Kabul hava limanı vasitəsilə 120 mindən çox mülki şəxsin təxliyəsində oynadığı rol NATO rəsmiləri tərəfindən xüsusi qeyd edildi. Azərbaycanın 2002-ci ildən 2021-ci il avqustun 27-dək bu əməliyyatda iştirak etdiyi və Əfqanıstanı ən son tərk edən ölkələrdən biri olduğu bildirildi.

Prezident İlham Əliyev Azərbaycanın regionda oynadığı rol, xüsusilə Vətən müharibəsinin başa çatmasından sonra bölgədə yaranmış yeni geosiyasi vəziyyət, Azərbaycanın Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olması, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə hazırlıq kimi məsələlər haqqında ətraflı məlumat verdi. Dövlətimizin başçısı qeyd etdi ki, NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Həmçinin Alyansın 4 ölkəsinin, o cümlədən Türkiyənin Azərbaycandan qaz idxal etdiyi və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğu diqqətə çatdırıldı. Azərbaycanın enerji təchizatı sahəsində etibarlı tərəfdaş olduğu, alternativ mənbə və alternativ xətt üzrə Avropanın enerji təhlükəsizliyinə töhfəsini verdiyi qeyd edildi.

### Azərbaycanın növbəti diplomatik uğuru

Dekabrın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Aİ Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü də keçirildi. Bu növbəti üçtərəfli görüş bir daha respublikamızın öz milli maraq və mənafelərini qətiyyətlə təmin etdiyini göstərdi. Görüşün gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər, əldə olunan razılaşmalar İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə siyasi sferada uğurla davam etdirən Azərbaycanın növbəti diplomatik nailiyyətidir.

Aİ Şurasının Prezidenti Şarl Mişelin üçtərəfli görüşün nəticəsinə dair bəyanatı da Azərbaycanın maraqlarını ehtiva etdi. Bəyanatda Aİ Şurasının Prezidenti tərəfindən Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilib. Şarl Mişel bildirib ki, 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr görüşləri və bəyanatlarından irəli gələn öhdəliklər yerinə yetirilməlidir.

Bəyanatda səslənən bütün fikirlər Aİ-nin təşəbbüsü ilə keçirilmiş Brüssel görüşündə Azərbaycanın haqlı mövqeyinin bir daha təsdiqləndiyini nümayiş etdirdi. O cümlədən bu bəyanat Ermənistanı bir daha kapitulyasiya aktının şərtlərinə əməl etməyə vadar edir və bu ölkədə revanşist meyillərin baş qaldırma ehtimalının heç bir perspektivi olmadığını təsdiqləyir. Aİ Şurasının Prezidenti "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadələrdən istifadə etmədi, Minsk qrupunun adını çəkmədi. Bu da bir daha təsdiq edir ki, Aİ Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür.

Dekabrın 15-də isə Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib.

Brüsselə səfəri zamanı Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenski, Moldova Prezidenti Maya Sandu ilə də görüşüb.

Prezident İlham Əliyev 2021-ci ildə son xarici səfərini Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 28-də Sankt-Peterburq şəhərinə edib.

*Beləliklə, 2021-ci ildə Prezident İlham Əliyev 7 dəfə xarici səfər edib: 4 dəfə Rusiyaya, 1 dəfə Türkiyəyə, 1 dəfə Türkmənistana və 1 dəfə Belçikaya. Bu səfərlər zamanı Prezident İlham Əliyev 12 ölkənin prezidenti (Türkiyə, Pakistan, Rusiya, Qırğız Respublikası, Türkmənistan, İran, Qazaxıstan, Tacikistan, Ukrayna, Moldova, Fransa, Özbəkistan), 3 beynəlxalq təşkilatın rəhbəri (Türk Şurası, Aİ, NATO) 2 ölkənin baş naziri (Macarıstan və Ermənistan) ilə görüşüb. Bu səfərlər və görüşlər Azərbaycanın xarici siyasətinin kifayət qədər dolğun, düşünülmüş və çoxşaxəli olduğunu göstərir.*

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**




# 2022-ci il "Şuşa ili"dir



# Qafqazın sənət məbədi

## Bu il Azərbaycanın unikal şəhərinin 270 yaşı tamam olacaq

Azərbaycanda yeni başlayan hər ilin bir rəmzlə adlandırılması və bununla daha da böyük dəyər qazanması xoş bir ənənəyə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa təbrik müraciəti zamanı 2022-ci ili "Şuşa ili" elan etdi. 5 yanvar 2022-ci ildə isə bu barədə möhtəşəm bir sərəncam imzaladı. Bununla artıq ilk günlərini yaşamaqda olduğumuz yeni ilimiz elə başlanğıcdan tarixiləşdi.

### 270 yaşlı şəhər

Dövlət rəhbərimizin bu qərarı, ilk növbədə, tarixi mahiyyət daşıyır. Bu il Şuşa şəhərinin 270 yaşı tamam olur. Qarabağ xanı Pənahəli xan Şuşanın təməl daşını 1752-ci ildə qoyub. Elə buna görə də ilk çağlarda Şuşa adı ilə yanaşı, bu gözəl məkan Pənahəli xanın şərəfinə Pənahabad kimi də tanınıb. Şəhərin əzəli-əbədi sakinləri olan azərbaycanlılar unikal relyefdə, hündür bir ərazidə qərar tutan Şuşanı mədəni cəhətdən də yüksəldiblər. Bura Qarabağ xanlığının əsas mədəniyyət mərkəzi kimi qısa müddətdə çox sürətli inkişaf yolu keçib. Şəhər ictimai fikir tariximizin yüksəlişində mühüm rol oynayıb. Hamını heyran qoyan bu qədim yurd yerimiz gözəl təbiəti, əsrarəngiz mənzərəsi, tarixi hekayəsi ilə bizə həmişə yenilməzlik nişanəsi, milli ruhumuzun etibarlı sığınacağı kimi görünüb. Şuşa artıq XVIII əsrdə Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib. Bu gözəl məkanın ətrafında böyük və güclü qala tikilib, çoxsaylı sənətkarların evlərindən ibarət məhəllələr yaranıb. Şuşalı tacirlər qonşu ölkələrin iri şəhərləri ilə geniş alqı-satqı, ticarət əlaqələri saxlamağa başlayıblar. Bu şəhərdə həm də Pənahabadi adlanan gümüş pullar da buraxılıb.

XIX əsrin sonu, XX əsrin əvvəllərində isə şəhər eyni zamanda Qafqazın musiqi beşiyi kimi tanınır, "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adları ilə qısa vaxtda məşhurluq qazanırdı. Bu şəhərdə yaşayan ustad xanəndə və sazəndələr ilk dövrlərdə öz şagirdlərini yetişdirirdilər. XX əsrin əvvəllərindən isə Şuşada artıq peşəkar musiqi təhsilinin ilkin nişanələri görünürdü. Təsadüfi deyil ki, Azərbaycanda peşəkar musiqinin banisi - dahi bəstəkar Üzeyir bəy Hacıbəyli də Şuşanın mədəni mühitində yetişmiş ziyalılarımızdan idi.

Ümumən, Azərbaycanın son 270 illik tarixinin elə bir səhifəsi yoxdur ki, orada Şuşanın adı keçməmiş olsun. Bu unikal yurd yerimiz məktəblərin, ədəbi məclislərin, teatrın, kitabxanaların və başqa mədəniyyət ocaqlarımızın yaradıldığı ilk şəhərlərimizdən olub. Bu şəhər öz inkişaf mühitində sonradan ictimai fikir tariximizdə mühüm rol oynayacaq tarixi şəxsiyyətlər, görkəmli ziyalılar formalaşdırıb. Azərbaycan Prezidentinin sərəncamında da qeyd edildiyi kimi, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazıb. Özünün müstəsna əhəmiyyəti ilə Azərbaycanın və ümumən Cənubi Qafqazın mədəni, ictimai-siyasi həyatında mühüm rol oynayıb.

Ötən əsrin 70-ci illərində Şuşa şəhəri ilə bağlı verilən quruculuq qərarları bu unikal məkanın inkişafına ikinci nəfəs verib. O illərdə Azərbaycana rəhbərlik edən Ümummilli Lider Heydər Əliyevin Şuşa sevgisi tükənməz idi. 1970-ci illərdə bu yurdun abadlıq işlərinə, inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq-bərpa tədbirləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bütün bunlar bir tərəfdən Şuşanın unikallığından, füsunkar gözəlliyindən, Ümummilli Lider Heydər Əliyevin bu şəhərin tarixi keçmişinə ruhən bağlılığından, orada yaşayıb-yaratmış şəxsiyyətlərimizin mənəvi irsinə ehtiramından irəli gəlirdi, digər tərəfdən isə Ulu Öndər Şuşanı müxtəlif vaxtlarda baş qaldıran əsassız erməni iddialarına qarşı alınmaz mənəvi qala kimi görürdü. Şuşa şəhəri bu torpaqların əzəli sakinləri olan azərbaycanlıların Qarabağın mərkəzindəki möhtəşəm imzasıdır. Keçmişlə bağlı saxta miflər uydurmaqda, gözlərinə görünən, qulaqları eşidən nə varsa öz adlarına çıxmaqda "mahir" olan ermənilər neyləsələr də, azərbaycanlıların Şuşadakı tarixi izlərini silməkdə həmişə aciz qalıblar. Bu mənada Şuşa bizim özünütəsdiqimizdir. Bu şəhəri biz adlandırmışıq, biz qurub yaratmışıq. Onun yaxınlığındakı Xankəndi də Şuşanın inkişafının formalaşdırdığı tarixi şəhərlərimizdəndir.

### Qələbə rəmzi

Şuşa milli varlığımızın ifadəsi, Qarabağın tacı, qəlbimizdə xüsusi yeri olan müqəddəs və əziz məkandır. Şuşa sevgisi bu illər ərzində hər bir dünya azərbaycanlısının mənəvi varlığının ayrılmaz parçasına çevrilib. Bu, həm də tarixi yurdumuzun qələbə rəmzimiz olması ilə bağlıdır. Əsrlər əvvəl Ağa Məhəmməd Şah Qacar kimi əzazil hökmdar, güclü sərkərdə belə, Şuşanı ala bilməyib. Köhnə şuşalıların dili ilə desək, burada "baş qoyub" gedib. Şəhəri əlimizdən alıb Qarabağ xanlığının mövcudluğuna son qoymaq istəyən Qacarı ölüm məhz burada haqlayıb. Azərbaycanın igid ərənləri Şuşanı onun əsgərlərindən qoruya biliblər.

1918-1920-ci illərdə isə bu gözəl şəhər çar imperiyasının məqsədli şəkildə bölgədə yerləşdirdiyi ermənilərin mənfur iddialarına qarşı sipər olub. Bu dəfə də Şuşanı onların azğın əməllərindən qorumaq lazım gəlib. Öz mənfur iddialarını reallaşdırmaqdan ötrü azərbaycanlılara qarşı zaman-zaman soyqırımı cinayətləri həyata keçirən ermənilər şəhərdə bir neçə dəfə yanğınlar, dağıntılar törədiblər. Amma şəhər onların zəhərli nəfəsindən hifz edilib, qısa müddətdə yenidən özünə gəlib. Azərbaycan Xalq Cümhuriyyəti ordusu Şuşanı, eləcə də Xankəndini və bolşevik-daşnak cütlüyünün Azərbaycandan qoparmağa çalışdığı digər tarixi ərazilərimizi erməni quldurlarının tör-töküntülərindən təmizləyib. Şəhərin həqiqi ruhunu və simasını özünə qaytarıb.

XX əsrin əvvəllərində daşnakların törəmələri 1992-ci ilin mayında havadarlarının köməyi ilə Şuşanı işğal edəndə, bəlkə elə bu qədim ruhuna, azərbaycanlıların izlərini buradan itirməyin mümkünsüzlüyünə görə şəhərə qarşı bu qədər amansız davranmışdılar. Düşmən Şuşanın bizim üçün nə demək olduğunu yaxşı bilirdi. Bu işğal 28 il bizə böyük bir nigarançılıq yaşatdı. Şuşa həsrəti əsəblərimizi tarıma çəkdi, qəlbimizdə yara açdı. Getdikcə bu yaranın göynərtisi artdı.

Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə erməni vandalları 600-ə yaxın tarixi memarlıq abidəsində, o cümlədən Pənahəli xanın sarayında, Yuxarı Gövhər ağa məscidində, Aşağı Gövhər ağa məscidində, Xurşidbanu Natəvanın evində, Molla Pənah Vaqifin məqbərəsində ağlasığmaz dağıntılar törətdilər. 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyini, Azərbaycan Xalçа Muzeyinin filialını və Xalq Tətbiqi Sənəti Muzeyini, Qarabağ Dövlət Tarix Muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtdılar. Buradakı nadir sənət incilərini talayıb məhv etdilər.

1992-ci ilin mayından bəri qəlbimizdə ağır bir yara, ruhumuzu əzən nisgil vardı. Bu, ürəyimizdən daş kimi asılmış Şuşasızlıq idi. İnanırdıq ki, milli varlığımızın rəmzi olan bu şəhər yad əllərdə qalmayacaq. Azərbaycan xalqı bu qeyrət qalamızı işğaldan azad edəcək. Onu yenidən həyata qaytaracaq. Amma qəlbimizin dərinliyində bir narahatlıq da vardı ki, bəlkə də ömür fərd olaraq bizə o gözəl günləri görməyi vəfa etməz. Şuşa bu illərdə dilimizin ən müqəddəs duasına, ömrümüzün ən böyük həsrətinə çevrilmişdi.

Ali Baş Komandan, Prezident İlham Əliyev Müzəffər Ordumuzun gücü ilə bu həsrətimizə son qoydu. Bizi arzumuza yetirdi. Rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində - haqq savaşımızda mənfur düşməni məğlub etdi. Şuşa şəhəri 2020-ci ilin 8 noyabrında işğaldan azad olundu. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər günü kimi həkk olundu.

### "Əziz Şuşa..."

2022-ci ilin "Şuşa ili" elan edilməsi tarixi qələbəmizin daha bir rəmzidir, parlaq zəfərimizin davamıdır. Azərbaycanın hərb meydanı ilə yanaşı, diplomatiya müstəvisində də qazandığı qələbənin təqdimatıdır. 44 günlük Vətən savaşı Azərbaycanın gücünü, qüdrətini, xalqımızın torpaq, Vətən sevgisini, milli qürurunu, kimliyini bütün dünyaya sərgilədi. Dünya Azərbaycan xalqını bu müharibədə, bu qələbədə yenidən kəşf etmiş oldu. Apardığımız haqq savaşı, xalq olaraq hətta müharibədə də ləyaqət hissini qoruyub saxlamağımız, insani dəyərləri unutmamağımız Azərbaycan xalqına rəğbəti daha da yüksəltdi. Kəndirlə qayalardan dırmanaraq sadə silahlarla düşmənin tankının, topunun üzərinə atılan, Şuşanı əlbəyaxa döyüşlə azad edən Azərbaycan igidləri bu qəhrəmanlıq dastanı ilə xalqımızın bundan sonrakı bütün nəsilləri üçün də böyük qürur mənbəyi yaratdılar. "Şuşa ili" həm də bu qürurun simvoludur!

Qələbəmizdən sonra azad yurdlarımızda geniş quruculuq işləri başlandı. Azərbaycan bununla göstərdi ki, erməni vandallarından fərqli olaraq bu yurdlar bizə dağıntı, xarabalıq kimi deyil, məhz inkişaf məkanı kimi lazımdır. Ermənilərin 30 ilə yaxın müddətdə daşını daş üstə qoymadıqları yurdlarımıza yenidən həyat qayıdır. Dövlətimiz torpaqlarımızı işğaldan azad etdiyi kimi qısa zamanda dirçəltmək əzmini də sübuta yetirir. Bərpa-quruculuq prosesi mədəniyyət paytaxtımız elan edilmiş Şuşa şəhərində xüsusilə sürətli şəkildə aparılır. Çünki ilk mərhələdə məcburi köçkünlərimizin qayıdışı nəzərdə tutulan şəhərlərimizdən biri məhz Şuşadır. Bu müqəddəs məkanın əsl tarixi simasının bərpası yönündə möhtəşəm layihələr gerçəkləşdirilir. Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanıb. Quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün dövlət idarəetməsinə böyük diqqət yetirilir. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılıb.

Qısa müddətdə Şuşanın Baş planı hazırlanıb. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü və muzey-məqbərə kompleksi öz ilkin görkəminə qaytarılıb. Bülbülün ev-muzeyinin, Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları olub. Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəyin işğal zamanı erməni vandalları tərəfindən satış məqsədilə aparılan və təsadüf nəticəsində Bakıya gətirilməsi mümkün olan, uzun illər paytaxtda saxlanan büstləri yenidən Şuşadakı tarixi yerinə qaytarıldı. Üzərindəki güllə izləri ilə erməni vandallarının bədnam əməllərindən bütün dünyaya ibrətamiz hekayə nəql edir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının, "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" möhtəşəm şənlik-kompozisiyanın və Vaqifin möhtəşəm məqbərəsi önündə "Vaqif Poeziya Günləri"nin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Şuşanın azadlığı günü xalqımıza qələbə müjdəsini verərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəfər sevincini bu tarixi kəlmələri ilə ifadə etmişdi. Dövlət rəhbərimiz insanlarımıza verdiyi bütün sözlərə sadiq olduğu kimi, əzəli şəhərimiz, mədəniyyət paytaxtımız Şuşa qarşısındakı vədini də yerinə yetirdi. 2022-ci ilin "Şuşa ili" elan edilməsi də bunun təcəssümüdür. Mövcudluğunun 270-ci ildönümündən Şuşa üçün böyük bir tarix başlanır. Bundan sonra bu şəhərdə əbədi yaşayacaq Azərbaycan xalqı Şuşanın gələcəyində, inkişafında böyük nailiyyətlərə imza atacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Şuşa ili"ndə daha möhtəşəm nailiyyətlər qazanılacaq

## İlham Əliyevin postböhran dövrü üçün müəyyən etdiyi inkişafın yol xəritəsi strateji vəzifələrin yerinə yetirilməsinə real zəmin yaradır

*Əvvəli 1-ci səh.*

### Sözükeçən və mövqeyi yüksələn ölkə

İqtisadi və hərbi qüdrəti möhkəm olan dövlət bütün sahələrdə uğur qazanmağa qadirdir. Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan da güclü iqtisadiyyata, qüdrətli orduya sahib olan dövlət kimi Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan ölkəyə çevrilib.

Ötən il Azərbaycanda 3 əsas istiqamət üzrə müəyyənləşdirilən layihələrin icrasının uğurla gerçəkləşdirilməsi bunu təsdiq edən reallıqdır. Belə ki, 2021-ci ildə işğaldan azad edilmiş torpaqlarımızda sürətli yenidənqurma, tikinti-quruculuq işləri, COVID-19-la mübarizə və ümumilikdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı icra edildi. Heç bir sosial layihə təxirə salınmadı. Bütün bu işləri Azərbaycan heç kimdən borc almadan öz gücünə rellaşdırdı. Yəni bütün bu işlər dövlət büdcəsi hesabına aparıldı və proses bu gün də davam etməkdədir.

Keçən il həm də Azərbaycan ordu quruculuğuna daha böyük diqqət yetirdi və eyni zamanda beynəlxalq arenada mövqelərini möhkəmləndirdi. Yeni silahlar, texnikalar alındı, müasir hərbi birləşmələr - Komando briqadaları yaradıldı. Ali Baş Komandan Xocavənd rayonuna səfəri çərçivəsində Hadrutda yaradılan Komando Briqadasına baş çəkdi və döyüş bayrağını təqdim etdi. Komando Qüvvələri istənilən hərbi vəzifəni icra etməyə hazırdırlar, onların sayı durmadan artır və Ali Baş Komandan bu il də analoji hərbi hissələrin yaradılacağını vurğuladı.

2022-ci ili "Şuşa ili" elan edən dövlət başçısı əminliklə vurğuladı ki, Azərbaycan bu il də bütün sahələrdə yüksək uğurlar qazanacaq. Bunu şərtləndirən isə İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsasında görülən tədbirlərdir. Bu sənəd qarşıdakı dövrdə inkişafın yol xəritəsi hesab olunur. Dünya iqtisadiyyatına hələ də ciddi təsir etməkdə olan qlobal pandemiya ilə mübarizə tədbirləri iqtisadiyyatımıza təsirsiz ötüşməsə də, dövlətin qüdrəti imkan verir ki, həm işğaldan azad edilmiş torpaqlarımızda quruculuq işləri, həm pandemiyaya qarşı mübarizə tədbirləri, həm də qarşıdakı dövr üçün yeni mütərəqqi islahatları reallığa çevirsin.

### Ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılıb

Hazırda qədəm qoyduğumuz postböhran dövründə iqtisadiyyatın artım tempi müşahidə edilir və inkişaf göstəriciləri yüksəlir. Ölkənin neft sahəsindən asılılığını aradan qaldırmaq istiqamətində görülən tədbirlər bəhrəsini verir və bunu qeyri-neft sektorundakı artım da təsdiqləyir. İqtisadi fəallığın artması ölkəmizin maliyyə-iqtisadi göstəricilərinin də yaxşılaşmasına səbəb olmaqdadır. Cari ilin dövlət büdcəsinin bütün göstəriciləri onu deməyə əsas verir ki, 2022-ci ildə də qarşıya qoyulan strateji vəzifələr uğurla yerinə yetiriləcək.

Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalır. Belə ki, 2022-ci ilin dövlət büdcəsi xərclərinin 15 faizi, yəni 4 milyard 490 milyon manat həcmində vəsait bu məqsədlər üçün nəzərdə tutulub.

Cari ilin büdcəsinin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ön sırada dayanır. Düşmənin vəhşicəsinə talan etdiyi kənd, qəsəbə və şəhərlərin yenidən qurulması və tarixi simalarının qaytarılması, ərazilərin minalardan təmizlənməsi, zəruri yol-nəqliyyat, elektrik, rabitə, su, qaz və digər kommunal infrastrukturların, həmçinin sosial-mədəni obyektlərin tikintisi, mədəni-tarixi abidələrin bərpası istiqamətində başlanılmış böyük həcmli işlər sürətlə davam etdirilməkdədir. Bu il işğaldan azad olunmuş ərazilərin bərpası məqsədi üçün büdcədən 2,2 milyard manat vəsait ayrılıb.

Bu bir həqiqətdir ki, Azərbaycan son 18 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, iqtisadiyyatımıza 300 milyard dollara yaxın investisiya yatırılması, ölkənin strateji valyuta ehtiyatlarının 63 milyard dolları keçməsi bunu təsdiq edən ən vacib faktlardır.

Göründüyü kimi, İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2022-ci ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. 2021-ci ildə görülən işlər onu deməyə əsas verir ki, Azərbaycanı 2022-ci ildə daha yüksək uğurlar gözləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# REGİONLAR



## Astarada və Kürdəmirdə “Şəhidlər bulağı” istifadəyə verilib



Astara rayonunun Təngərüd kəndində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə ucalmış Birinci Qarabağ müharibəsinin şəhidi Əhmədov Mahir Xaliq oğlunun və 44 günlük Vətən müharibəsinin şəhidi Fərəməzov Nurlan Əhliman oğlunun adlarını əbədiləşdirmək üçün inşa edilmiş “Şəhidlər bulağı” abidə kompleksinin açılış mərasimi keçirilib.

Tədbirdə Astara Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Firəngiz Sadıxova, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Turan Həsənzadə, Astara Rayon Heydər Əliyev Mərkəzinin direktoru Kubra Səmədova, Təngərüd kənd tam orta məktəbinin direktoru Xəqani Mahmudov, şəhidlərin ailə üzləri, kənd ziyalıları iştirak ediblər.

Mərasimdə çıxış edənlər Birinci Qarabağ və Vətən müharibələrində Azərbaycan Ordusunun əsgər və zabitlərinin, o cümlədən astaralı döyüşçülərin qəhrəmanlıqlarından danışıblar.

Şəhid Nurlan Fərəməzovun atası Əhliman Fərəməzov, şəhid Mahir Əhmədovun oğlu Vaqif Əhmədov, Vətən müharibəsinin qazisi Möhnət Səmədov ölkəmizdə şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Mərasimdə məktəblilər hərbi-vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

Mərasim iştirakçıları Təngərüd kəndindəki “Baba Cəbrayıl” ziyarətgahında hər iki şəhidin məzarı önünə gül dəstələri düzərək xatirələrini ehtiramla yad edib, onların ruhuna dualar oxuyublar.

* * *

Kürdəmir rayonunun Quşlar kəndində Vətən müharibəsi şəhidləri Elnur Vəfadar oğlu İmamverdiyevin, Ziyadxan İbrahim oğlu Əliyevin və Əbdülhəsən Balaş oğlu Eyvazovun xatirəsinə tikilən bulağın açılışı olub. Açılış mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin məsul işçiləri, kənd sakinləri, ictimaiyyət nümayəndələri, şəhidlərin yaxınları iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə Kürdəmirdə Şəhidlər xiyabanını ziyarət edib, torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edən Vətən oğullarının xatirələrini ehtiramla anıblar.



Quşlar kənd ümumi orta məktəbinin qarşısında inşa olunan xatirə bulağının açılışında şəhidlərin qısa və şərəfli həyat tarixçəsindən danışılıb, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gündə tarixi qələbə ilə başa çatan Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan oğullarımızın xatirələrinin hamımız üçün daim əziz olduğu vurğulanıb.

Məktəblilərin ifasında Vətənə, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib.

## Ölkədə 1 milyon hektardan çox sahədə dənlik və yaşıl yem üçün payızlıq bitki toxumları səpilib

Ölkədə 2022-ci ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmaq üzrədir və cari il dekabr ayının 24-ü vəziyyətinə 1 milyon 21 min 987,6 hektar sahədə dənlik və yaşıl yem üçün payızlıq bitki toxumları səpilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, səpin aparılmış sahənin 98,8 faizini və yaxud 1 milyon 9 min 451,2 hektarını dənlik üçün payızlıq bitkilər təşkil edib ki, onun da 601 min 837,6 hektarı buğda, 407 min 448,6 hektarı arpa, 165 hektarı isə çovdar əkinlərinin payına düşür.

Ən çox buğda toxumu Cəlilabad (56 min 449,3 hektar), Şəki (32 min 318,6 hektar), Şamaxı (29 min 321,4 hektar), Füzuli (29 min 321 hektar), İsmayıllı (22 min 495 hektar), Hacıqabul (21 min 978,9 hektar) və Ağcabədi (19 min 654,7 hektar) rayonlarında, ən çox arpa bitkisi Neftçala (34 min 825,7 hektar), Kürdəmir (32 min 996,4 hektar), Şəki (32 min 964,4 hektar), Biləsuvar (22 min 568,1 hektar), Ağsu (18 min 921 hektar), Goranboy (14 min 450 hektar) və Füzuli (12 min 518,3 hektar) rayonlarında səpilib.

Ötən ilin eyni dövrü ilə müqayisədə dənlik üçün payızlıq bitki toxumları səpin sahəsi 2,9 faiz, o cümlədən arpanın səpin sahəsi 9,3 faiz artıb, buğdanın səpin sahəsi isə 1,1 faiz azalıb.

◆ **İlin yekunları**

# Gədəbəydə yaşamaq da, işləmək də fərqlidir




Özünün füsunkar və əsrarəngiz təbiəti, yeraltı, yerüstü sərvətləri ilə zəngin olan Gədəbəy həm də işgüzar insanları sarıdan tanınır. Bu yerlərin dağ yamaclarının zirvəsinə qalxdıqca gözoxşayan mənzərələr insanı valeh edir. Belə bir bölgədə yaşamaq və işləmək söz yox ki, fərqlidir.

Əvvəlki illərdə olduğu kimi, 2021-ci il də gədəbəylilər üçün iqtisadi inkişaf və sosial güvənlik sarıdan uğurlu oldu. Rayon demək olar ki, bütün sahələr üzrə yüksək göstəricilər əldə etdi. Ümumdaxili məhsul istehsalının dəyəri 344 milyon 905,1 min manata yüksəldi ki, bu da əvvəlki illə müqayisədə 13 milyon 80,9 min manat və ya 3,9 faiz çoxdur. Sənaye məhsulları istehsalı 4,3 faiz artaraq 153 milyon 805,7 min, kənd təsərrüfatı məhsulları istehsalı isə 10,5 faiz artaraq 133 milyon 519 min manata çatdı.

Rayon üzrə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulmuş 16 tədbirin icrası ilə bağlı layihələrin icrası uğurla davam etdirilmişdir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq rayona investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində bir sıra məqsədyönlü işlər həyata keçirilmiş, nəticədə yeni layihələrin icrasına 1 milyon 857 min manat investisiya yatırılmışdır.

Əvvəlki illərdə olduğu kimi, keçən il də rayonda aqrar sahənin inkişafı diqqət mərkəzində saxlanılmışdır. Xüsusilə Gədəbəy kartofunun istehsalını artırmaq və əhalinin bu ərzaq məhsuluna olan tələbatını ödəmək üçün bir sıra işlər həyata keçirilmişdir. Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevlə söhbət zamanı məlum oldu ki, rayonda kartofçuluğun inkişafına dəstək verilməsi üçün aprel ayında yeni yaradılmış yüksək məhsuldarlıqlı kartof sortu nümunələrinin yerli şəraitə uyğunluğu və davamlılığı məqsədilə Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun əməkdaşları ilə birlikdə “Çənlibel”, “Uğur”, Turan” və “Vaqif” sortlarının sınaq əkinləri aparılmışdır. Nəticə uğurlu olmuş və cari ildə bu sortların daha geniş ərazilərə əkilməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, rayon kartofçuları keçən ili yüksək göstəricilərlə yola salmışlar. 10 min 44 hektarda kartof yetişdirən təsərrüfat sahibləri 126 min 560 ton məhsul toplamışlar. Hər hektardan 126 sentner kartof yığılmışdır ki, bu da əvvəlki illə müqayisədə 5 sentner çoxdur.

Rayonda taxılçılığın inkişafı da diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, keçən il rayonda 2983 hektarda taxıl toxumu əkilmişdir ki, onun da 2731 hektarı buğda, 253 hektarı arpa olmuşdur. Zəmilərə göstərilən yüksək aqrotexniki qulluq öz bəhrəsini vermiş, əvvəlki ilə nisbətən 671 ton çox məhsul əldə edilmişdir. Sahələrdən 8 min 30 ton taxıl biçilmişdir. Onun da 7 min 551 tonu buğda, 479 tonu arpa olmuşdur. Cari ilin bol məhsulu üçün də bünövrə yaradılmışdır. 2970 hektarda payızlıq taxıl toxumu əkilmiş və yaxşı çıxış alınmışdır.

Gədəbəyin təbiəti heyvandarlığın inkişafı üçün geniş imkanlara malikdir. Bu imkandan istifadə edən fermerlər hər il bol heyvandarlıq məhsulları istehsal edirlər. Hazırda rayonda 45,5 min baş qaramal, 225,3 baş davar saxlanılır. Keçən il Gədəbəydə diri çəkidə 69 min 432 ton ət, 441 min 747 ton süd istehsal edilmişdir.



Arıçılıq gədəbəylilərin ata-baba peşəsidir. Son illər arıçılığın inkişafı ilə əlaqədar dövlət tərəfindən verilən subsidiya rayon arıçıları arasında böyük canlanma yaratmışdır. Nəticədə rayonda bal istehsalında nəzərə çarpacaq dərəcədə artım qeydə alınmışdır. Təkcə keçən il rayonda 80 tondan çox bal istehsal edilmişdir.

Məşğulluğun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər də əhali tərəfindən razılıqla qarşılanır. Belə ki, il ərzində rayondakı Məşğulluq Mərkəzinə müraciət etmiş 1157 nəfərin 189 nəfəri təlimlərə cəlb edilmişdir. Onlardan 126 nəfərinin məşğulluq məsələsi müsbət həll olunmuşdur. İşlə təmin olunanlar arasında 23 nəfər şəhid ailələrinin üzvləridir.

Əhalinin dayanıqlı elektrik enerjisi ilə təminatında da müsbət irəliləyişlərə nail olunmuşdur. İl ərzində 10 kilovoltluq hava xətlərində 8,5, 0,4 kilovoltluq hava xəttində 24,5 kilometr məsafədə əsaslı və cari təmir işləri aparılmışdır. 120 elektrik dayağı yenisi ilə əvəz edilmiş, 75 transformator yarımstansiyası təmir edilmişdir.

Mavi yanacağa olan tələbatın ödənilməsinə gəldikdə, rayonun Zəhmətkənd, Arıqdam, Düzyurd kəndlərində, eləcə də Gədəbəy şəhərinin bir sıra ərazilərində istismara yararsız müxtəlif diametrli borular dəyişdirilmiş, köhnə sayğaclar yenisi ilə əvəz edilmişdir.

Rayonda gənclər arasında hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər də qeyd olunmalıdır. Məhz bunun nəticəsidir ki, 30 il erməni işğalı altında olan torpaqlarımızın azad edilməsində Gədəbəy gəncləri də ruh yüksəkliyi ilə iştirak etmişlər. Vətən müharibəsi başlayanda 820 gədəbəyli Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə gələrək könüllü olaraq cəbhəyə yola düşmüşdür. Rayonun müxtəlif idarə və təşkilatlarında işləyən bu gənclər torpaqlarımızın azad olunmasında şücaət göstərərək əsl vətənpərvər olduqlarını bir daha sübut etmişlər.

Müharibədə Gədəbəy 32 şəhid vermişdir. 166 nəfər isə yaralanmışdır. İstər müharibə dövründə, istərsə də müharibədən sonrakı müddətdə şəhid və qazi ailələri rayon rəhbərliyi tərəfindən hər cür qayğıkeşliklə əhatə olunmuşlar. Təkcə keçən il onlarla 50-dən artıq görüş keçirilmiş, həmin görüşlərdə qaldırılan problemlər həll edilmişdir. Məsələn, Novosaratovka kəndində şəhid anası Səkinə Hüseynovaya sahəsi 120 kvadratmetr olan fərdi yaşayış evi tikilmiş, 33 şəhid ailəsinə yardımlar olunmuşdur. Eyni zamanda 13 şəhid ailəsinin üzvü tibbi müayinədən keçirilmiş, 7 şəhid ailəsinin üzvü işlə təmin edilmiş, 96 şəhid ailəsi mənzil növbəsinə götürülmüşdür.

***Sabir ƏLİYEV, “Azərbaycan”***

## Çaylarda mühafizə bəndləri tikilir



Son illər respublikada meliorativ tədbirlər uğurla davam etməkdədir. Qax rayonunda da bu işlər Qax Suvarma Sistemləri İdarəsi tərəfindən ötən il plana uyğun olaraq aparılıb.

Əkin sahələrinin suvarma suyu ilə təminatı, o cümlədən yaşayış məntəqələrinin sel sularından mühafizəsi üçün bir sıra işlər görülüb ki, bu işlərdən biri də rayon ərazisindən axan və zaman-zaman sel təhlükəsi yaradan Kürmük çayında həyata keçirilib. Kürmük çayının sağ və sol sahilində, İbaxlı və Əlibəyli kəndləri ərazilərindən keçən hissəsində daş-beton bəndlər tikilib.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən bildirilib ki, Qax Suvarma Sistemləri İdarəsi tərəfindən su itkisinin qarşısının alınması məqsədilə ötən il 2270 metr torpaq məcralı kanal beton üzlüyə alınıb. Bu işlərin 1000 metri Qıpçaq ana kanalında, 500 metri Cəlayir ana kanalında, 500 metri Qobala-1 kanalında, 200 metri Qobala-2 kanalında və 70 metri Qaxmuğal kanalında həyata keçirilib. Bundan başqa, suvarma suyunun sahələrə fasiləsiz və intensiv çatdırılması üçün torpaq məcralı kanallarda lildən təmizləmə işləri aparılıb. Hazırda idarənin balansında olan texnikalar vasitəsilə rayonun müxtəlif ərazilərində kanallar lildən təmizlənir.

Qeyd edək ki, ötən il idarə tərəfindən böyük təsərrüfatların yerləşdiyi ərazilərdə əkin sahələrinin suya olan tələbatının ödənilməsi üçün Hayvalı suvarma kanalının müəyyən hissəsində qapalı və yarım qapalı metal borulu su ötürücü qurğunun təmiri həyata keçirilib. Bundan başqa, Kürmük çayının sağ və sol sahilləri boyu Əlibəyli, İbaxlı, Qaxbaş, Dəymədağlı kəndləri ərazisindən keçən hissəsində, Qara çay hövzəsi, Ləkit çay və Zərnə çay məcrasında məcra təmizləmə işləri aparılıb.

## Ölkəyə ilk dəfə gətirilən xarici cins “Murciana” keçilərinin satışına başlanılıb

“Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan Qobustan Heyvandarlıq Nümayiş Kompleksinə bu günlərdə yeni Avropa mənşəli cins damazlıq heyvanlar gətirilib.



“Murciana” keçiləri kompleksin davar heyvanların saxlama fermasında standartlara uyğun şəraitdə saxlanılır, qidalandırılır və baytar nəzarəti edilir. Karantin müddəti bitdiyinə görə artıq keçilərin satışına başlanılıb.

Bu heyvanların kompleksə gətirilib satılmasında əsas məqsəd xarici cins damazlıq heyvanların satışının təşkil edilməsi ilə bərabər fermerlərin cins heyvanlara əlçatanlığına, ölkədə heyvanların cins tərkibinin yaxşılaşdırılmasına nail olmaqdır.

Qeyd edək ki, vətəni İspaniya olan “Murciana” keçiləri isti və quraqlıq iqlim şərtlərinə asanlıqla uyğunlaşa bilir. “Murciana” keçilərindən yüksək məhsuldarlıq əldə etmək mümkündür. Belə ki, diri çəkidə erkəklərdə ət məhsuldarlığı 50-60 kq, dişilərdə 30-50 kq, süd məhsuldarlığı 500 kq, laktasiya müddəti 280 gün, yağlılıq faizi 5,3, proteini 3,4 faiz təşkil edir, südü əsasən pendir üçün daha uyğundur.

Qobustan Heyvandarlıq Nümayiş Kompleksində heyvanların 60 faiz dövlət güzəşti ilə satışı təşkil edilir. Burada fermerlər heyvanlara baxış keçirərək, sərgi satış mərkəzində və auksionda hərraca qoşularaq da istədikləri heyvanları əldə edə bilərlər. Sərgi salonuna gələn ziyarətçilər ölkədə və Avropada satışda olan heyvanlar haqqında videoçarx və satış nümayəndələri vasitəsilə onların məhsuldarlığı, şəcərəsi, cins tərkibi, saxlanılma şəraiti barədə ətraflı məlumat əldə edə bilərlər. Həmçinin kompleksin daxilində heyvan satışını həyata keçirən lizinq şirkətləri, heyvanların sığortalanması üçün sığorta şirkətləri fəaliyyət göstərir ki, bu da müasir kompleksdə heyvan alqı-satqısı zamanı bütün prosesləri fermerlər üçün daha asan edir. Belə ki, bütün alqı-satqı, sığorta, lizinq, güzəşt tətbiqi prosesləri vahid mərkəzdə həyata keçirilməklə, xidmətlərdə operativlik və şəffaflıq təmin edilir. Başqa sözlə, fermerlər bu qurumlara ayrı-ayrılıqda müraciət etmədən seçdikləri heyvana görə sənədləşdirmə işlərini bir gün müddətində həyata keçirərək ala bilir.

**Bölgə müxbirimiz xəbər verir**

## Gəncədə genişmiqyaslı abadlıq və yaşıllaşdırma işlərinə başlanılmışdır



Yeni ilin gəlişi ilə Gəncədə genişmiqyaslı abadlıq və yaşıllaşdırma işlərinə start verilmişdir.

Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin işçiləri tərəfindən gün ərzində şəhərin müxtəlif ərazilərində təmizlik və təmir-bərpa işləri görülür, yaşıllıqlara qulluq olunur.

Son 3 ayda Gəncənin müxətlif ərazilərində 8 mindən çox ağac əkilib və proses hazırda davam edir.

Görülən tədbirlər çərçivəsində şəhərin küçələrinin işıqlandırılmasına xüsusi diqqət yetirilir. Hazırda bu sahədə yeni layihə icra olunur. Bununla yanaşı, ehtiyac olan yerlərdə işıq dayaqları yuyulur və rənglənir, istifadə müddəti başa çatmış lampalar yeniləri ilə əvəz olunur. Sökülmüş bordür və tamet daşlarının bərpası, çoxmənzilli yaşayış binalarının fasadlarının təmiri, dayanacaq və köşklərin yuyulması, ünvan lövhələrinin yenilənməsi də görülən işlər sırasındadır.

Şəhər icra hakimiyyətinin təşəbbüsü ilə gənclərdən ibarət yaradılmış qruplar şəhər ərazisində reydlər keçirməklə əhali arasında yaşıllıqların qorunması və qədim Nizami yurdunun təmiz və səliqəli saxlanması üçün təbliğat işləri aparırlar.

## “Zəfər Kuboku” respublika turniri keçirilmişdir

Göygöl rayonunda Azərbaycan Cüdo Federasiyasının və Göygöl Olimpiya İdman Kompleksinin təşkilatçılığı, Göygöl rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə 15 yaşadək olan yeniyetmə cüdoçuların “Zəfər Kuboku” respublika turniri keçirilmişdir.

Ölkənin müxtəlif bölgələrindən yarışa qatılan və 14 komandanı təmsil edən 200-dən çox oğlan və qız cüdoçu tatami üzərində mübarizə aparmışlar.

Pandemiya qaydalarına uyğun olaraq Beynəlxalq Cüdo Federasiyasının standartları səviyyəsində keçirilən yarışın sonunda qaliblərə kubok, medal və diplomlar təqdim edilmişdir.

## Ağstafada Tokio Yay Olimpiya Oyunlarının mükafatçısı ilə görüş keçirilmişdir

Tokio Yay Olimpiya Oyunlarının Yunan-Roma güləşi üzrə gümüş mükafatçısı, əslən Ağstafanın Muğanlı kəndindən olan Pərviz Nəsibovla görüş keçirilmişdir.

Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının inzibati binasında keçirilən görüşdə rayon icra hakimiyyətinin, Gənclər və İdman İdarəsinin, Təhsil şöbəsinin əməkdaşları, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər. Görüşdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Pərviz Nəsibov haqqında ətraflı məlumat verilmişdir. Qeyd edilmişdir ki, Pərviz Nəsibov erkən yaşlarından yunan-Roma güləşi üzrə məşğul olmağa başlamış və ilk uğurunu rayon birinciliyində qazanmışdır. 7 yaşında ailəsi ilə birlikdə Ukraynaya köçərək karyerasını orada davam etdirən idmançı 2017-ci ildə Almaniyada keçirilən gənclər arasında Avropa çempionatında qızıl, 2018-ci ildə Dünya Çempionatında gümüş medal qazanmışdır.

Tədbirin sonunda müvafiq hədiyyə və diplomlarla təltif olunan olimpiya mükafatçısı çıxış edərək azərbaycanlı olmağı ilə qürur duyduğunu və ona göstərilən yüksək diqqətə görə minnətdarlığını bildirmişdir.

***S.ƏLİYEV, “Azərbaycan”***

## Ötən il Ağcabədidə arıçılara 58,8 min manat subsidiya ödənilib

Ağcabədi rayonunda 283 təsərrüfatçı arıçılıqla məşğul olur. Hazırda rayonun arıçılıq təsərrüfatlarında 5884 arı ailəsi var. Dövlətin bu sahəyə göstərdiyi qayğı, eləcə də hər arı pətəyinə görə subsidiya ayrılması arıçılığa marağı artırıb.

Bu barədə Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Qurumdan bildirilib ki, Nazirlər Kabinetinin təsdiq etdiyi “Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası”na uyğun olaraq, ötən il Ağcabədi rayonunda arıçılıqla məşğul olan təsərrüfatçılara dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 58 min 840 manat subsidiya ödənilib.



*Bəzi xəbərlərin hazırlanmasında AZƏRTAC-ın informasiyalarından istifadə edilmişdir*





# Mədəniyyət





● Klassik irsimiz

**Azərbaycan xalqının dünyaya bəxş etdiyi yüksək mənəvi-əxlaqi gücə qadir şəxsiyyətlərdən biri də ustad aşıq, dahi söz mücahidi, klassik irsimizin görkəmli nümayəndəsi Aşıq Ələsgər olmuşdur. O, söz-sənət işığında parlayan fenomenal bir insan, xalq arasında böyük nüfuz qazanmış el sənətkarı idi.**
**İki əsrin hüdudlarında yaşayıb-yaratmış bu qüdrətli sənət sahibinin rəngarəng və müxtəlif səpkili yaradıcı fütuhatı demək olar ki, bütün tarixi dövrlər üçün aktualdır.**



# Aşıq sənətinin fədaisi

Aşıq Ələsgərin orijinal və novator baxışları, milli-mənəvi dəyərlərə istinad edən yaradıcılıq yolu və insanlığı genişspektrli, daim təbii görünüş təsiri bağışlayan model üzərində qurulmuşdur.

Onun poeziyasında xalq deyimləri, el-oba nəğmələri insan-təbiət-cəmiyyət prizmasından nəzmə çəkilmiş, öz dəyərini xalq müdrikliyindən əxz etmişdir. O, sözün açıq mənasında, xalq təfəkküründən bəhrələnmiş ozan, bilici aşıq olaraq, həm də təbiət poetikasında öz bariz əksini tapmış, ilhamının idrak və düşüncə işığını bu yenilməz mənbələrdən əxz etmişdir.

Sənətkarın bu qəbildən olan şeirlərinin ən bariz təcəssümü "Yaylaq" qoşmasında daha aydın və lakonik səsləndirilmişdir:

*Könlüm qaranquş tək uçub qoynuna,*
*Gəzir hər yamacı, hər yanı, yaylaq!*
*Ruhum təzələnir, məst olur ürək,*
*Görəndə bu çağı, bu halı, yaylaq!*

*Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,*
*Bənövşə, qantəpər, qızlar örpəyi,*
*Qoyun mələşməsi, çoban tütəyi,*
*Çəkir uzaqlara xəyalı, yaylaq!*

*... Ələsgər köynəkdən çıxarsın sazı,*
*Yenə cuşa gəlsin eşqi, avazı.*
*Tərifləsin allı-yaşıllı yazı,*
*Unutma bu böyük kamalı, yaylaq!*

Şeirə, sənətə dərin hörmət bəsləyən Aşıq Ələsgərin poetik kəlamlarında təsadüfi deyil ki, təbiətə məftunluq hissi, onun min bir sehr-sədalı çağırışlarının əsas yaradıcı kredosu olaraq, həm də xarakteri ilə səsləşən özünəxas hikmət duyumu ilə başa düşülür, ictimai məzmun kəsb edir. İnsan və təbiət vəhdəti bu şeirlərin mayasıdır. Ətraf aləm gözəlliklərini şairanə duyğuların predmetinə çevirən Aşıq Ələsgər bədii idrakın gücü ilə yerli toponimləri, yurd, torpaq sevgisini sanki təbiətdən ilham alaraq poetikləşdirir, ona ictimai məna tutumu verir.

Aşığın təbiət poetikasında təzahür tapan hissi-idraki məqamlar, lətafətli lirik notlar nəğməkar bir ruhun törəməsidir. Vətənin hər bir dağı, daşı, zümrüd meşələri, bol bərəkətli düzəngahları, lilpard çeşmələri, sərin-şərbət bulaqları, saçaqlı şəlalələri, qıy vuran qartalları, başı qarlı zirvələri, süsənli-sünbüllü tarlaları, dəli-dolu çayları, laləli-nərgizli yamacları insan qəlbini ehtizaza gətirən sevgi seyrangahlarıdır. Bu təbiət gözəllikləri, xüsusən, onun gözəlnamələrində bədii tərənnüm obyekti olaraq insanda ülviləşən nəcib, estetik-mənəvi keyfiyyətlərdir. Aşığın təbiət poetikasında incələnən aforistik deyimlərdə müraciət təriqli fikir və mülahizələr nikbin notlar üzərində kökləndiyindən bu yolda təbii komponentlərin vəsfi də müdrik və aşiqanə görünür. "İncimərəm" qoşmasında xüsusən bu fəlsəfi, hikmətamiz deyimlər geniş, təfəkkürlü məna kəsb edir.

Dədə Ələsgər, ümumiyyətlə, qüdrətli söz və saz ifaçılığı sahəsində böyük xidmətlər müəllifidir. O öz Vətəninin hər bir guşəsini qarış-qarış gəzərək, aşıq mədəniyyətimizin əsl fədaisi olmuşdur.

Bu yönümdən onun təbiət poetikası yüksək təsir gücünə malik zəngin bir xəzinədir.

Doğru mühakimədir: "Ələsgərə görə, bütün gözəllikdən insanlar gözəldir, o da ancaq bu gözəlliklərin vəhdətinə, bir-birini daha da gözəlləşdirən gözəlliklərin şəninə dastan deyir".

Cəsarətlə demək olar ki, Ələsgər şeiri üçün təbiətlə təmas qurmaq mehri adi istək, seyrçi mövqe deyil, geniş mündəricədə bu təbii gözəlliklər aşığın sazının, sözünün və ifaçılığının bənzərsizliyini təsdiq edən münasibətin təntənəsidir. Təbiətdən ilhamlanmaq, ondan mənəvi güc almaq hər kəsə nəsib olan keyfiyyət deyil. Bu mənada insan və insanlıq şərafətinə xoş ovqat gətirən poeziya və sənət dünyası üçün can fəda edənlər gerçək həyatın bütün estetik çalarlarını humanist qayələrlə, dərin emosional hiss və çırpıntılarla duyub dərk etməlidir. Aşıq Ələsgərin də təbiət harmoniyasından ilhamlanmaq qüdsiyyəti onun xarakterinə hopmuş, uzunömürlülüyünə rəvac verən bir mücəssəmə olduğunu unutmamalıyıq.

Aşığın sənət palitrası ecazkar söz incilərindən ibarət böyük bir qalereyadır.

Ustad aşıq yeri gəldikcə xəyal, düşüncə dünyasında özünün həyat eşqini məhz təbiətlə təmasda görürdü. Bu məqsədə o, təbiət meracından boy alan saysız-hesabsız şeirlərində, "ilham pərisi"nin daim onun üzünə güldüyünü, istedadı üçün başlıca zəmin olduğunu xatırlayaraq bu fütuhatdan mənəvi təsəlli tapır, yer, yurd adları ilə bağlı milli təəssübkeşliyi də fəxarətlə tərənnüm edirdi.

Aşıq Ələsgərin poeziyasında təbiəti sevmək, onu qorumaq özəl bir məsələ deyil. O, hər kəsin bu yolda məslək və məramını halallıq prizmasından dəyərləndirir, bu müşahidələrə xor baxanları tərbiyələndirici çağırışları ilə tənbeh edir, ittihamnamələr irəli sürürdü:

*...Hər kəs sərdən keçib mərdi-mərdana,*
*Baş qoysun bu yolda meydana gəlsin!*
*Dərya dilim dalğa vurdu, bulandı,*
*Qərq olmaq istəyən ümmana gəlsin!*

Ustad aşığın təbiət poetikası həm də yüksək təhsilləndirici məzmunla haşiyələnmişdir. O, yerli toponimləri də yeri gəldikcə, gözəlləmələrində təqdir edir, doğma yurd və məmləkətinin tanıdılmasında şərəf və ləyaqət nümunəsi göstərir, nəğməkar şeirlərində möhtəşəm tanıtmalara xüsusi yer ayırırdı. El-mahal adlarını şeir, sənət ülviyyəti ilə vəsf edirdi.

Dədə Ələsgərin şeirinin dadı, təravəti onun təbiət silsiləli yaradıcılığının əsas qayəsini təşkil edir.

Bu gün gənc nəslin ekoloji mədəniyyətə, təbiətsevərliyə qovuşmasında, şübhəsiz ki, klassik şair və yazıçılarımızın əsərlərində yaşayan, əbədiləşən poetik nümunələrdən də istifadə etmək nəcib və təşəbbüskar bir iş sayılmalıdır. Məhz bu baxımdan Aşıq Ələsgərin bədii təcəssüm obyekti olan gözəlləmələrinin böyük bir qismində təbiətə bağlılıq xoşməramlı kəlamlarla ehtiva olunmuşdur. Bu ovqata səbəb olan təbiət hadisələrinin təsvirində aşıq yetkin deyimləri "Dağlar" qoşmasında belə ifadə edir:

*...Xəstə üçün təpəsində qar olur,*
*Hər cür çiçək açır, laləzar olur,*
*Çeşməsindən abi-həyat car olur,*
*Dağıdır möhnəti, məlalı dağlar.*

Aşıq Ələsgərin ideya-mənəvi irsi bitib-tükənməyən bir xəzinədir. Ustad aşığın 200 illik yubileyi 2021-ci ildə ümumxalq və ümumdövlət səviyyəsində qeyd olundu.

İnanmaq olar ki, qədirbilən xalqımız aşıq sənətinin təbliği və təşviqi yolunda uzun müddət fədakarlıq nümunəsi göstərən bu böyük şəxsiyyətin yaradıcı ömrünə işıq tutacaq, onun adının əbədiyaşarlıq ecazına yeni-yeni töhfələr bəxş edəcəkdir.

Bunu isə bizdən həyatın özü tələb edir.

***Vidadi BƏŞİROV,***
***Azərbaycan Dillər Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru***

● Fikrət Əmirov - 100

## Rusiyada "Min bir gecə" baleti nümayiş olunacaq

**Bu ilin yanvarın 22-23-də dünyaca məşhur Mariinski Teatrının yeni səhnəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun anadan olmasının 100 illiyi münasibətilə "Min bir gecə" baleti nümayiş etdiriləcəkdir. Tamaşa Mariinski Teatrının Primorsk səhnəsinin heyətinin ifasında təqdim ediləcəkdir.**



Bu quruluşda "Min bir gecə" baleti ilk dəfə 2020-ci ildə teatrın bədii rəhbəri və baş direktoru, dünya şöhrətli dirijor Valeri Gergiyevin dəvəti ilə səhnələşdirilmişdir. Tamaşanın quruluşunu Rusiyada yaşayan həmyerlimiz, tanınmış baletmeyster, Mariinski Teatrının Primorsk səhnəsinin balet truppasının bədii rəhbəri Eldar Əliyev həyata keçirmişdir.

Onu da qeyd etmək lazımdır ki, "Min bir gecə" baleti 2020-ci ildə "Mariinski. Vladivostok" V Beynəlxalq Festivalın açılış günü nümayiş etdirilmişdir.

● "Böyük qayıdış - mədəniyyətin dirçəlişi"

## İşğaldan azad edilmiş ərazilərin mədəni irsinin bərpası davam edir



**Bu gün mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası istiqamətində dövlətimiz tərəfindən ardıcıl işlər həyata keçirilir.**

İşğaldan azad olunmuş Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Laçın və Kəlbəcər rayonları ərazisində Mədəniyyət Nazirliyi tərəfindən ilkin monitorinqlər aparılıb. Dövlət qeydiyyatında olan 403 tarixi mədəniyyət abidəsinə baxış keçirilib. Eləcə də 162 dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji mənşəli obyektin monitorinqi aparılıb. Şuşada yerləşən 45 abidənin üzərinə məlumat lövhəsi quraşdırılıb, həmçinin abidələrin elektron xəritələri hazırlanıb. Bundan əlavə, ölkə üzrə 110 mədəniyyət abidəsinin pasportu və abidələrin mühafizə zonası üzrə 72 layihə təsdiq edilib.

Şuşada Bülbülün Ev-Muzeyi bərpa olunub, "Böyük Qayıdış - mədəniyyətin dirçəlişi" Beynəlxalq konfransı təşkil edilib. Eləcə də Heydər Əliyev Fondunun xətti ilə "Vaqif Poeziya Günləri", "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilib.

● Sərgi salonlarında

## Həyata sevgi ilə...

**Azərbaycan Milli İncəsənət Muzeyində "Həyata sevgi ilə: Mikayıl Abdullayev" adlı sərgi açılıb.**



Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyinə həsr olunmuş sərgidə Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Musiqi Mədəniyyəti Dövlət Muzeyinin kolleksiyasından əsərlər nümayiş olunub.

Muzeyin direktoru, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev bildirib ki, kollektiv Mikayıl Abdullayevin 100 illik yubileyinə böyük məsuliyyət və sevgi ilə hazırlaşmışdır. Burada görkəmli rəssamın 190-a yaxın rəngkarlıq və qrafik əsəri tamaşaçılara təqdim olunur. Vernisajda "Axşam", "Sevinc", "Azərbaycan tarlalarında", "Səadət qurucuları", "Mingəçevir işıqları", "Hindistan anası", "Çəltikçi qızlar" tematik tabloları, "C.Cabbarlı", "Y.Məmmədəliyev", "M.P.Vaqif", "M.F.Axundzadə", "Yazıçı H.Seyidbəyli", "Şair S.Rüstəm" portretləri yer alıb. Ekspozisiyada, Əməkdar rəssam, heykəltaraş Zeynalabdin İsgəndərovun müəllifi olduğu və Mikayıl Abdullayevin obrazı canlandırılan heykəltaraşlıq kompozisiyası da sərgilənir.

Akademik Mikayıl Abdullayevin Azərbaycan rəssamlıq sənətinin inkişafında müstəsna xidmətləri olub. O, bir çox beynəlxalq mükafatların laureatı idi. Fırça ustası Ümummilli Lider Heydər Əliyev tərəfindən "İstiqlal" ordeninə layiq görülüb.

Rəssamın ilham mənbəyi, yaradıcılığının təməli doğma vətəni Azərbaycanla bağlı olub. Sənətkarın "Azərbaycan doğma Vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram" sözləri də bunun əyani sübutudur. O, yaradıcılığında milli-mənəvi ənənələri əks etdirməklə yanaşı, hər zaman bəşəri dəyərlərə, ideallara da geniş yer ayırıb. Sənətkar Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və bir çox başqa ölkələrdə olduğu zaman gördüyü maraqlı məqamları, insanların həyat tərzini, mədəniyyətini əks etdirən silsilə əsərlər yaradıb. Mikayıl Abdullayevin əsərləri Paris, London, Berlin, Praqa, Budapeşt, Belqrad, Sofiya, Varşava, Dehli, Qahirə, Brüssel və digər şəhərlərin muzeylərində ən dəyərli eksponatlar kimi qorunub saxlanılır.

Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən ötən il sərəncam imzalanıb və icrası məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilib. Mikayıl Abdullayevin yaradıcılığını özündə əks etdirən nəfis tərtibatlı kataloq üzərində işlər aparılıb. Həmçinin rəssamın mərmərdən büstü hazırlanaraq Milli İncəsənət Muzeyinin kolleksiyasına daxil edilib.

Xüsusi zövq və dizaynla hazırlanmış ekspozisiyada nümayiş olunan həm rəngkarlıq, həm də qrafika nümunələri, tematik tablo, portret və mənzərə janrlarında əsərlər Mikayıl Abdullayevin rəngarəng sənət duyumunu əks etdirir.

Milli İncəsənət Muzeyində "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgisi mart ayına qədər davam edəcək.

● Yaddaş

# Tarixi muzeylər yaşadır

## Vətən müharibəsi Milli Azərbaycan Tarixi Muzeyində də salnaməyə çevrilir

**"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək, düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik..."**




Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi bu fikirlər tariximizin şanlı səhifələrinə qızıl hərflərlə həkk edildi. Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edir. Deyirlər, "Tarixi insanlar yaradır, muzeylər isə onu qoruyur". Bu məqsədlə də 2021-ci ildə AMEA Milli Azərbaycan Tarixi Muzeyində Vətən Müharibəsi Fondu yaradılıb. Həm də respublikada ilk dəfə olaraq Vətən müharibəsinə həsr olunmuş "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgi açılıb, Zəfər günü ilə əlaqədar müxtəlif tədbirlər keçirilib.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri Fəridə Şəms deyir ki, 2021-ci ilin yanvar ayında Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Şurasının qərarı ilə yaradılan Vətən Müharibəsi Fondunun məqsədi Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid və qazi olan həmvətənlərimizə məxsus geyim, xatirə əşyaları, sənədlərin, fotoşəkillərin toplanması, qorunması, tədqiqi, təbliği və bu mövzuya aid nəşrlərin hazırlanmasıdır: "...Fondda yer alan materiallar Birinci Qarabağ müharibəsini, 2016-cı ilin Aprel, 2020-ci ilin Tovuz döyüşlərini və 44 günlük Vətən müharibəsini əhatə edir. Burada Azərbaycanın Milli Qəhrəmanları general-mayor Polad Həşimova, polkovniklər İlqar Mirzəyevlə Şükür Həmidova, eləcə də Çingiz Qurbanova məxsus əşyalar və fotolar mühafizə olunur. Vətən müharibəsində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Dövlət Sərhəd Xidməti, Minatəmizləmə Agentliyi, Müdafiə Sənayesi Nazirliyi və digər qurumların şəxsi heyətlərinin geyim növləri, ləvazimat nümunələri, tədris və ideoloji vəsaitləri də fondda yerləşdirilib".

Eksponatların arasında Azərbaycan Ordusunun torpaqlarımızın azad edilməsi zamanı erməni silahlılarından hərbi qənimət kimi götürdüyü nümunələr də var. Eyni zamanda il ərzində 250 şəhidimizə aid materiallar fonda daxil edilib. Ümumilikdə, 2 mindən çox material burada inventarlaşdırılıb. Bu istiqamətdə işlər davamlı şəkildə aparılır. Fond materialları əsasında gələcəkdə sənədli filmlərin və televiziya verilişlərinin çəkilişi də nəzərdə tutulub.

Fondda qorunan eksponatlar əsasında 2021-ci il mayın 19-da muzeydə "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin birinci hissəsinin açılışı olub.

Azərbaycanın Vətən müharibəsində parlaq qələbəsi və torpaqlarımızın azad edilməsinə həsr olunmuş sərgi döyüş iştirakçılarına məxsus eksponatlar əsasında qurulub. Sərgidə 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşlərinin iki qəhrəmanı (general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev), həmçinin Vətən müharibəsinin 101 şəhid və qazisinin əşyaları nümayiş olunur. Burada hərbi uniforma, ləvazimat, qəlpə və güllələr, şəxsi sənədlər, fotoşəkillər sərgilənir.

Muzeyin şöbə müdirinin bildirdiyinə görə, ümumilikdə sərginin 30 vitrinində 557 eksponat, 12 informasiya-məlumat paneli, 7 iriölçülü banner, 204 ədəd fotoşəkil nümayiş olunur: "Həmçinin "Ermənistanın dövlət terrorzmi azərbaycanlı fotoqrafların obyektivində" adlı fotosərgidə 44 günlük müharibə dövründə Azərbaycanın dinc şəhər və kəndlərinə atılmış raket-artilleriya zərbələrinin dağıntıları, eləcə də 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərdə həyata keçirilmiş vandallığı təsdiqləyən, 7 fotoqrafın çəkdiyi 50 ədəd fotoşəkil burada özünə yer alıb. Bunlarla yanaşı, Gəncə və Bərdəyə atılmış raket zərbələrini nümayiş etdirən onlarca eksponat, 4 iriölçülü diorama ilə də burada tanışlıq mümkündür".

May ayından başlayaraq muzeyin İnnovasiyalar və təhsil proqramları şöbəsi tərəfindən "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgi çərçivəsində "Xarıbülbül - Qələbə rəmzi" adlı silsilə ustad dərsi keçirilib. Adıçəkilən şöbənin əsas fəaliyyət istiqamətlərindən biri gənclərin vətənpərvərlik tərbiyəsidir. Bu məqsədlə Milli qəhrəmanlara, şəhidlərə həsr olunmuş tədbirlər silsilə xarakter alıb. Fevralın 9-da "Zoom" platformasında məktəblilərlə birgə "Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir", aprelin 7-də onlayn formatda 2016-cı il Aprel döyüşlərinə, iyunun 9-da Vətən müharibəsi şəhidi Elvin İslamovun anım gününə həsr olunan, sentyabrın 29-da yenə də Vətən müharibəsindən bəhs edən, Gəncə və Bərdə məktəblilərinin iştirakı ilə tədbir keçirilib. İl ərzində şöbənin elmi işçisi, "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun rəhbəri Sahibə Ələkbərovanın klubun üzvləri ilə "Tarix yazan qəhrəmanlar" layihəsi çərçivəsində şəhid Şəhriyar Qasımovun, Yaqub Yaqubzadənin, Tural Abdullayevin ailələri ilə keçirdiyi görüşlər də yaddaqalan olub.

Muzeydə ötən ilin may ayının 18-dən başlayaraq "Yolumuz Qarabağadır! Qarabağ Azərbaycandır!" layihəsi çərçivəsində "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun üzvləri Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Xocalı, Ağdam Tarix-Diyarşünaslıq muzeylərini, eləcə də Mahrızlı kəndində fəaliyyət göstərən Rahib Məmmədov adına Ağdam Rayon Döyüş Şöhrəti Muzeyini ziyarət etməklə, işğaldan sonrakı illərdə adıçəkilən mədəniyyət müəssisələrinin işləri ilə yaxından tanış olmuşlar. Bütün bunlar gənc muzeyşünasların gələcək fəaliyyətlərində mühüm amillərdən hesab edilir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Sosial layihə

## "Qarabağ ilmələrdə" sənədli filmi kinoteatrlarda nümayiş etdirilir




**"Nizami" Kino Mərkəzində "Qarabağ ilmələrdə" sənədli filminin təqdimat mərasimi keçirilib.**

Mərasimdə mədəniyyət, incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.

Təqdimat mərasimində xüsusi vurğulanıb ki, ölkəmizin 44 günlük Vətən müharibəsindəki Qələbəsini simvolizə edən və xalqımızın həmrəyliyini nümayiş etdirən sənədli film "Qarabağ ilmələrdə" adlı sosial layihə çərçivəsində hazırlanıb. Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin təşəbbüsü, Mədəniyyət Nazirliyi, "Azərxalça" ASC və "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə keçirilən sosial layihədə bir xalçanı 44 gün ərzində minlərlə insan toxuyub. Sonuncu ilmələri işğaldan azad olunan Şuşa şəhərində vurulan xalçanın toxunma prosesi əvvəldən axıra qədər filmdə əks olunur.

Çıxışlarda bildirildi ki, xüsusi avtomobildə daşınan xalçaya şəhid ailələri, müharibə iştirakçıları və bölgələrimizdə yaşayan vətəndaşlar ilmə ataraq Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun rəhbərlik etdiyi şanlı Ordumuz tərəfindən 44 gün ərzində düşmən üzərində qazanılan Qələbənin yaşatdığı hissləri təcəssüm etdiriblər.

Layihəyə "Azərxalça"nın 12 emalatxanası və 16 toxucusu cəlb olunub.

"Qarabağ ilmələrdə" filminin ssenari müəllifi Orxan Cabbarlı, quruluşçu rejissoru Emil Babayev, rejissoru Bəhruz Qədirov, quruluşçu operatoru isə Böyükağa Nağıyevdir. Ekran işi Vətən müharibəsində hər bir azərbaycanlının zəhmətini, birlik və bərabərliyini nümayiş etdirmək baxımından böyük əhəmiyyət daşıyır.

"Qarabağ ilmələrdə" sənədli filmi kinoteatrlarda uğurla nümayiş etdirilir.

***"Azərbaycan"***




# «Omikron» Azərbaycana da gəldi

## Yeni ştam dünyada COVID-in ən dominant növünə çevrilir

*Əvvəli 1-ci səh.*

Son günlər ərzində 30-dan çox ölkədə pandemiyanın başlanmasından sonra daha çox həftəlik yoluxma halları qeydə alınır. Bu sırada Avropa, Afrika ölkələri, o cümlədən ABŞ xüsusilə fərqlənir. ABŞ, Böyük Britaniya və Fransada gündəlik yoluxanların çoxluğu xəstəxanaya yerləşdirilənlərin də sayına təsir göstərir.

Baş verənlər çox tezliklə "Omikron"un dominant "Delta"nın yerini tutacağını deməyə əsas verir. Mütəxəssislərin fikrincə, "Delta" Afrikadan başqa bütün qitələrdə ən çox yayılmış variant olsa da, "Omikron" yaxın həftələr və ya aylar əzində qlobal miqyasda dominantlığına görə "Delta"nı əvəzləyəcək.

Sinqapur Milli Universitet Xəstəxanasının Yoluxucu xəstəliklər şöbəsinin baş məsləhətçisi, professor Dale Fisher ümumi məlumatlar bazasına əsaslanaraq qeyd edib ki, "Omikron" yoluxma saylarına görə Avstraliya, Hindistan, Rusiya, Cənubi Afrika və Böyük Britaniyada üstünlük təşkil edir.

Hollandiya Milli İctimai Səhiyyə və Ətraf Mühit İnstitutu "Omikron"un "Delta" və digər variantları geridə qoyaraq ölkədə dominant varianta çevrildiyini bəyan edib. Açıqlamaya görə, ölkədə bu variantın yayılması 50 faizi ötüb.

ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) ölkədə "Omikron"a yoluxma halının sayının dəfələrlə artdığını, bu sayın bütün yoluxmaların əhəmiyyətli hissəsini təşkil etdiyini açıqlayıb. Qurumun məlumatına görə, 2021-ci ilin noyabr ayının sonuna qədər COVID-19-a yoluxma hadisələrinin 99,5 faizi "Delta" olsa da, çox sürətlə yayılan "Omikron" artıq dominant növə çevrilib.

Mütəxəssislər yeni ştam hesabına hər gün qlobal səviyyədə orta hesabla iki milyon yeni yoluxma hadisəsinin aşkarlanmasının ölkələrin səhiyyə sistemlərinə ciddi təzyiq göstərə biləcəyindən narahatdırlar. Cənubi Afrika və Böyük Britaniyada aparılan real tədqiqatlar "Omikron"a yoluxmuş insanların "Delta"ya yoluxanlarla müqayisədə xəstəliyi daha yüngül keçirdiyini üzə çıxarıb. "Omikron"un qripdən daha çox soyuqdəyməyə bənzər əlamətlərinin olduğunu deyən Cənubi Afrikadan olan həkimlər qeyd edirlər ki, bu ştama yoluxaraq xəstəxanaya yerləşdirilənlərin əksəriyyətinin oksigenə ehtiyacı olmur.

Çinli alimlər isə "Omikron"un təhlükəsiz olması fikri ilə razılaşmayaraq, onun "ağır soyuqdəymə" kimi qəbul edilməsinə qarşı çıxıblar. Koronavirusu hələ də təhlükəli sayan alimlər "Omikron"un immuniteti zəif olan insanlar üçün xüsusi risk yaratdığını vurğulayıblar. "Omikron"un simptomları ilə bağlı açıqlama verən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Xəstəliklər Bölməsinin direktoru Abdi Mahamud isə COVID-in bu variantının aşağı tənəffüs yollarına deyil, yuxarı tənəffüs yollarına təsir etdiyini təsdiqləyən araşdırmaların sayının getdikcə artdığını söyləyərək bunu "yaxşı xəbər" kimi dəyərləndirib. O, COVID-19 peyvəndlərinin "Omikron"lu xəstələrin xəstəxanaya yerləşdirilməsindən qoruyacağını da bildirib.

### Yeni mutasiyalar

"Omikron" COVID-19-un geniş şəkildə yayılan ən son mutasiyası olsa da, bəzi alimlər bu ştamdan sonra da yenilərinin ortaya çıxdığını iddia edirlər. Fransanın Marsel İnfeksion Xəstəliklər İnstitutunun alimləri ölkələrində koronavirusun yeni ştamının aşkar edildiyini açıqlayıblar. Kamerunda meydana çıxan yeni ştam B1.640.2 adlandırılıb. Həmin ştamda 40-a yaxın mutasiya birləşib. Kipr Universitetinin biologiya elmləri professoru Leondios Kostrikis isə "Omikron" və "Delta"nın birləşməsindən "Deltakron" adlı yeni mutasiyanın yarandığını, bölgədə ona yoluxmanın baş verdiyini iddia etsələr də, ÜST bunu təkzib edib və "Deltakron"un real olmadığını açıqlayıb.

İsrail, Braziliya və Xorvatiyada isə həm koronavirus, həm də qrip infeksiyalarının əlamətlərini özündə daşıyan flurona xəstəliyi aşkarlanıb. Həkimlər insanları yüksək hərarət, əzələ ağrısı ilə müşayiət olunan bu xəstəliyə yoluxmamaqdan ötrü diqqətli olmağa çağırırlar.

### ÜST: "Peyvəndin dördüncü dozasının vurulmasındansa, dünya əhalisinin 70 faizinin peyvənd olunması daha düzgün olar"

ÜST nümayəndələrinin də dediyi kimi, "Omikron"un "sunami" effekti ilə yayılması bir çox ölkələri COVID-19-a qarşı peyvəndlənmə prosesini daha da gücləndirməyə məcbur edir. ÜST-ün Xəstəliklər Bölməsinin direktoru Abdi Mahamud qeyd edib ki, insanlara peyvəndin dördüncü dozasının vurulmasındansa, iyul ayına qədər dünyada peyvənd olunan əhalinin faiz göstəricisinin 70-ə çatdırılması daha düzgün olar. O, yayadək dünya əhalisinin 70 faizinin peyvəndlənməsinin hazırda ən əsas hədəflərdən biri olduğunu söyləyib.

Virusun sürətlə yayılması bir çox ölkələri pandemiya ilə mübarizə istiqamətində yeni qaydalar, məhdudiyyətlər tətbiq etməyə vadar edir. Almaniya kansleri Olaf Şolts ölkənin bar və restoranlarına tam peyvənd olunmuş və ya virusdan sağalmış, test nəticəsi neqativ olan şəxslərin buraxılacağını açıqlayıb. Ekvadorda isə hökumət koronavirusa yoluxma hallarının kəskin artımı ilə əlaqədar yaşı beşdən çox olan uşaqların vaksin olunmadan kinoteatr, ticarət mərkəzləri, stadion və digər ictimai yerlərə daxil olmasına məhdudiyyət tətbiq edib. Fevral ayından isə ölkədə üç yaşdan yuxarı uşaqların vaksinasiyasına başlanılacaq.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# "Buta Airways" aviaşirkəti Bakıdan Kazan və Ufa şəhərlərinə uçuşları bərpa edir

"Buta Airways" aviaşirkətinin Mətbuat xidmətinin məlumatına görə, cari ilin mart ayında "Buta Airways" aviaşirkətinin uçuş marşrutları xəritəsinə eyni zamanda iki Rusiya şəhəri daxil ediləcək. Aviadaşıyıcı Heydər Əliyev Beynəlxalq Aeroportundan iki istiqamət üzrə - Kazan və Ufa şəhərlərinə xüsusi reyslərin açılması barədə elan verib.



Hər iki istiqamətdə reyslər həftədə iki dəfə yerinə yetiriləcək.

Bakı-Kazan-Bakı marşrutu üzrə uçuşlar martın 16-dən başlayacaq və həftənin çərşənbə və şənbə günləri həyata keçiriləcək. Bakı-Ufa-Bakı marşrutu üzrə uçuşlar isə martin 17-dən tarixindən başlayacaq və həftənin cümə axşamı və bazar günləri həyata keçiriləcək.

Ölkədəki epidemioloji vəziyyətlə əlaqədar tətbiq olunan məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super". Hər iki tarifə ödənişsiz yer seçimi və hava limanında qeydiyyat daxildir.

Həmin reyslərə biletləri "Buta Airways" aviaşirkətinin rəsmi saytından ("Super" və "Standart" tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız "Super" tarifi üzrə) əldə etmək mümkündür.

Aviabiletlərin dəyəri 55 avrodan başlayır.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm də gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci Terminalında xidmət göstərilir.

Reyslərə yalnız COVID-19 pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunur.

Rusiyaya səfər etməyi planlaşdıran Azərbaycan vətəndaşları bu ölkə ərazisinə giriş hüququna malik olmalıdırlar. Qeyd edilən reyslərlə yola düşən bütün sərnişinlər "COVID-19 olmadan səyahət edirəm" mobil əlavəsini smartfonlarına yükləməli və pasportlarının skan edilmiş versiyasını, həmçinin COVID-19 üçün PCR - testinin nəticəsini həmin mobil əlavəyə daxil etməlidirlər. Pandemiya dövründə Rusiyaya giriş qaydaları aviaşirkətin saytında dərc olunmuşdur: **https://www.butaairways.az/az/covid/russia.**

Azərbaycanda COVID-19-a dair testdən keçmək üçün klinikaların siyahısı aviaşirkətin rəsmi saytında təqdim edilmişdir: **https://www.butaairways.az/az/covid/clinics.**

Sərnişin Rusiya şəhərlərindən Azərbaycana uçuş zamanı COVID-19-a dair testi dövlət tərəfindən akkreditə olunmuş və PCR - testi üsulu ilə analiz götürən istənilən klinika və ya laboratoriyada verə bilər. PCR - testinin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR - kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 11.01.2022-ci il saat 23:00-dan etibarən 12.01.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## ◆ Dünya gündəmi

# "Pekin Olimpiadası mütləq keçiriləcək"

## Tomas Bax bəyan edib ki, bəzi ölkələrin boykot qərarı Qış Oyunlarının uğuruna heç bir təsir göstərməyəcək

"Bütün dünyada koronavirusun "Omikron" variantının sürətlə yayılmasına baxmayaraq, Çinin paytaxtı Pekində Qış Olimpiya Oyunları mütləq keçiriləcək". Bu barədə Beynəlxalq Olimpiya Komitəsinin sədri Tomas Bax Almaniyanın "Welt am Sonntag" qəzetinə müsahibəsində bildirib.




O, oyunların, planlaşdırıldığı kimi, fevralın 4-dən 20-dək keçəcəyini təsdiqləyib. Tomas Bax pandemiya fonunda beynəlxalq yarışların keçirilməsindən imtina etməyin lazım olub-olmaması haqqında diskussiyanı BOK-un bütün idmançıların marağı üçün qəbul etməli olduğu "çağırış" adlandırıb. Çünki uzun illik məşqlərdən və hazırlıqdan sonra Olimpiya Komitəsi onların haqq etdiyi arzularını yerinə yetirməli və oyunların təhlükəsiz şəraitdə keçirilməsini təmin etməlidir.

Olimpiadanı ləğv etmək lazım olmayacağına əminliyini bildirən Tomas Bax bunu Çin hakimiyyətinin koronavirus pandemiyasına qarşı mübarizədə "çox ciddi" siyasəti ilə əsaslandırıb. Olimpiya yarışlarının ilkin mərhələsində iştirak etmək üçün idmançılardan tələb olunan və atletlərin bir qisminin "alçaldıcı" saydığı məhdudiyyətləri şərh edən BOK sədri Qış Olimpiya Oyunları ərəfəsində həyata keçirilən sərt tədbirlərin olimpiyaçıların əhvali-ruhiyyəsini korlamayacağını vurğulayıb.

### BOK siyasətdən kənardır

Tomas Bax bir sıra ölkələrin, o cümlədən ABŞ və Böyük Britaniyanın Pekin Olimpiadasını diplomatik boykot etmək çağırışlarından danışaraq, onlara anlayışla yanaşdığını, lakin onun üçün əsas məqamın idmançıların özlərinin mövqeyi olduğunu vurğulayıb.

Eyni zamanda o, BOK-un siyasi neytrallığını bir daha bəyan edib: "Bizim vəzifəmiz, missiyamız ondan ibarətdir ki, olimpiada vasitəsilə dünyanın hər yerindən insanları bir yerə toplayaq. Əgər biz bu və ya digər siyasi mövqe tutsaq, bunu edə bilmərik, belə ki, siyasi bəyanatlar verəcəyik və bununla da müxtəlif ölkələrdən olan idmançıları təcrid edəcəyik".

### Bəzi etirazlar Pekin oyunlarına zərər vura bilərmi?

"Yaxın vaxtlarda biz qeyri-hökumət təşkilatlarının daha fəal şəkildə milli hökumətlərə təzyiqləri artıracağını görəcəyik", - deyə Almaniyanın Köln şəhərindəki İdman Universitetinin idman siyasəti üzrə eksperti Yurgen Mittaq bildirib.

Alim prosesin, ehtimal ki, yanvar ayının ortalarında öz zirvəsinə çatmasını gözləyir. Mittaqın dediyinə görə, "onda biz görərik ki, bu həqiqətənmi razılaşdırılmış əməllərdir, yəni bir çox dövlət və hökumət başçıları oyunları ziyarət etməkdən, doğrudan da, imtina edəcəklərmi? Onun fikrincə, bu halda olimpiadaya, şübhəsiz, ziyan vurulacaq.

Bəzən siyasətçilərin boykotu adlandırılan diplomatik boykot, oyunların tam boykotu ilə müqayisədə daha yüngül bir variant kimi görünür. Almaniyalı mütəxəssis hesab edir ki, bu, yalnız ilk baxışdan belədir. "Son nəticədə, boykotun gücündən asılı olaraq, idman hadisəsinə müəyyən zərər dəyə bilər. Eyni zamanda Çin dünyada siyasi ağırçəkili, qlobal gücdür. Boykot məsələlərinə çox diqqətli yanaşma olmalıdır, çünki ÇXR-in digər sahələrdə cavab tədbirləri görəcəyindən ehtiyatlanmaq lazımdır. Bu, sizin məruz qalmaq istəmədiyiniz narahatlığa səbəb ola bilər".

### Çin cavab tədbirləri görəcəyi ilə hədələyir

2022-ci il Pekin Olimpiya Oyunlarının "diplomatik boykotu"nu elan edən ölkələr səhv hərəkətlərinə görə "bədəl ödəyəcəklər". Bu barədə Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Van Venbin xəbərdarlıq edib.

Onun dediyinə görə, ABŞ, Böyük Britaniya, Avstraliya və Kanada siyasi manipulyasiyalar üçün olimpiya platformasından istifadə edirlər. Bu hərəkətlər dəstək almayacaq və beləliklə, onlar özlərini təcrid edəcəklər".

Bununla yanaşı, Venbinin fikrincə, bəzi ölkələrin rəsmilərinin oyunlarda iştirak etməməsi onların uğurlu keçirilməsinə heç bir təsir göstərməyəcək.

### Olimpiadalar tarixində boykotlar

Olimpiya oyunlarının boykotları və siyasi səbəblərə görə onların boykot təhdidləri bir ənənə şəkli alıb. Məsələn, Varşava Müqaviləsinin iştirakçısı olan dövlətlərin qoşunlarının Macarıstana soxulmasına etiraz əlaməti olaraq İspaniya, Niderland və İsveçrə 1956-cı ildə Melburnda keçirilən Yay Oyunlarında iştirak etməyib.

1979-cu ilin sonlarında Sovet İttifaqının Əfqanıstana daxil olmasından sonra 42 ölkə 1980-ci ildə Moskvada keçirilmiş Yay Olimpiya Oyunlarını boykot edib. Dörd il sonra SSRİ və digər 19 dövlət Los-Anceles Olimpiadasında iştirakdan imtina edərək qarşılıqlı cavab verib. 1988-ci ildə Şimali Koreya Cənubi Koreyanın paytaxtı Seulda keçirilən Olimpiadaya idmançılarını göndərməyib və daha beş dövlət bu boykota qoşulub.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# Dövlət Təhlükəsizliyi Xidməti saxta sosial şəbəkə hesabları ilə bağlı vətəndaşlara müraciət edib

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) saxta sosial şəbəkə hesabları ilə bağlı vətəndaşlara müraciət edib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, bu qurumun məlumatında son zamanlar bəzi sosial şəbəkə platformalarında Dövlət Təhlükəsizliyi Xidmətinin adından istifadə etməklə yaradılmış bir sıra saxta səhifə və profillərin fəaliyyətinin müşahidə edildiyi bildirilib. Qeyd olunub ki, belə halların mövcudluğu bir çox istifadəçilərin bu hesabları rəsmi mənbə kimi qəbul etməsinə səbəb olur və nəticədə həmin sosial şəbəkə resurslarında yerləşdirilən materialların DTX tərəfindən yayımlanması kimi başa düşülür.

"Qeyd etmək istərdik ki, DTX-nin rəsmi internet saytı "https://www.dtx.gov.az/az/", "Feysbuk", "Tviter", "İnstaqram", "Yutub" sosial şəbəkələrində müvafiq olaraq "https://www.facebook.com/DTXAzerbaijan", "https://twitter.com/DTX_Azerbaijan", "https://www.instagram.com/azerbaijandtx/", "https://www.youtube.com/c/DTXofficialchannel/" səhifə və kanalları fəaliyyət göstərir. DTX-yə aid məlumatlar yalnız bu mənbələrdə yerləşdirilir. Həmçinin xüsusi olaraq vurğulayırıq ki, DTX-nin sosial şəbəkələrdəki rəsmi səhifələri "Feysbuk", "Tviter", "İnstaqram", "Yutub" administrasiyaları tərəfindən verilib və bu resursların rəsmiliyini təsdiq edən qeydiyyat nişanına sahibdir.

Bununla yanaşı, bildiririk ki, sosial şəbəkələrdə DTX-nin rəhbərliyinə məxsus hər hansı profil və ya hesab mövcud deyil.

Vətəndaşlarımızın və KİV nümayəndələrinin diqqətinə çatdırırıq ki, DTX-nin fəaliyyəti barədə məlumatlar yalnız yuxarıda qeyd edilən DTX-nin rəsmi internet resurslarından əldə olunmalıdır", - deyə məlumatda bildirilir.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri Firudin Hacıyev və idarənin kollektivi iş yoldaşları, binanın istismarı şöbəsinin müdiri Elçin Məmmədova anası

**SAHİBƏ QƏHRƏMAN QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4525
Sifariş 43
Qiymətі 40 qəpik